Xalqın qəzeti!
# Xalq qəzeti
№ 106 (30222) 21 may 2023-cü il, bazar
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Almatı Bəyannaməsi faktiki olaraq keçmiş respublikaların sərhədlərini müəyyənləşdirib və onları rəsmi sərhədlər hesab edib. Bu, o deməkdir ki, onlar artıq razılaşıblar ki, Qarabağ Azərbaycandır. Ermənilər də mənim söylədiyimi söyləməlidirlər – Qarabağ Azərbaycandır!



## Birləşmiş Ştatlar Qafqazda ədalətli sülhü dəstəkləyir

**Hörmətli cənab Prezident!**

Amerika xalqı adından Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycanla Birləşmiş Ştatlar arasındakı tərəfdaşlıq regionda inkişafı təmin edib. Biz birlikdə terrorizmlə mübarizə aparır, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı tədbirlər görür və kütləvi qırğın silahlarının yayılmasının qarşısını alırıq. Xüsusən, Rusiyanın Ukrayna xalqına qarşı qəddar müharibəsi dövründə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz bir yerdə olmuşuq. Birləşmiş Ştatlar Cənubi Qafqazda gələcək nəsillər üçün təhlükəsizlik və inkişafı təşviq edəcək, Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəkdir.

Qarşıdan gələn ildə təhlükəsizlik və iqtisadi əməkdaşlığımızın dərinləşdirilməsi də daxil olmaqla, tərəfdaşlığımızı daha da gücləndirməyi həvəslə gözləyirəm. Sizə sevincli və firavan Müstəqillik Günü arzu edirəm.

**Səmimiyyətlə,**

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Məğlubiyyətdən dərs almayanlar



**2023-cü ildə özünün hərbi büdcəsini 47 faiz artıraraq ilk dəfə 1 milyard dolları keçən Hayastan ordunu silahlandırmaqla məşğuldur. Rusiya hərbi texnikasına artıq güvənməyən rəsmi İrəvan axtardığı silah-sursatı uzaq Hindistanda tapıb və Dehli ilə üçillik müqavilə imzalayıb.**

Sülhə gəlməyə tələsməyən, danışıqlar prosesini süni şəkildə uzadan və bununla vaxt udmağa çalışan Hayastan başbilənləri, deyəsən, Azərbaycana qarşı yeni hərbi əməliyyatlara getmək planından əl çəkməyiblər. Görünür, iki il altı ay bundan əvvəl qazandığımız Qələbə sayəsində bölgədə yaratdığımız yeni reallığı həzm edə bilməyən daşnaklara bir hərbi dərs kifayət etməyib. Rəsmi Bakının xoşməramlı addımlarını, sülh təkliflərini sağlam məntiqlə dəyərləndirmək əvəzinə, İrəvanın baş vurduğu "hərbi fəaliyyət taktikası" ona dəlalət edir ki, haylar 44 günlük müharibədəki acı məğlubiyyətdən nəticə çıxarmayıb. Bu, azmış kimi, İrəvandan revanş çağırışları, yeni müharibəyə hazırlığın anonsları eşidilir.

*(ardı 4-cü səhifədə)*

## Günnüt əməliyyatı – Qarabağ Zəfərinin Naxçıvan müjdəsi

Səhifə ⇨ 8



## Azərbaycan-Ermənistan münaqişəsinin may nizamlanması: 4-dən 14-ə, 19-dan 25-ə



**Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanın bu il mayın 19-da keçirilmiş Moskva görüşü müstəvisində hər iki Cənubi Qafqaz ölkəsi arasındakı normallaşma prosesi ilə bağlı vurğulanmalı bir sıra məqamlar var.**

*(ardı 3-cü səhifədə)*

## Ölkəmizdə ÜDM-in bu il 2,5 faiz, gələn il isə 2,7 faiz artacağı gözlənilir

Səhifə ⇨ 7

## Qlobal bərpaolunan enerji layihələrinə maraq getdikcə artır



Səhifə ⇨ 10

## Bakıda bədii gimnastika üzrə Avropa çempionatı bu gün başa çatacaq



Səhifə ⇨ 11

## Nizamini Azərbaycandan ayırmaq onun xalqına qarşı mübarizə üsuludur



Səhifə ⇨ 6

## Cəllad! Sənin qalaq-qalaq yandırdığın kitablar...

Səhifə ⇨ 6

## "The New York Times": ABŞ F-16-ların Ukraynaya göndərilməsinə qapı açır



Səhifə ⇨ 10

## Şoyqunun "sağ əli" də ermənipərəst çıxdı



Səhifə ⇨ 3

## İrəvanın "bananlı narkotik" biznesi



Səhifə ⇨ 4

## Nüvə müharibəsi mövzusu 78 il sonra Xirosimada: taleyin istehzası, yoxsa...

Səhifə ⇨ 10



# Azərbaycan–Ermənistan münaqişəsinin may nizamlanması: 4-dən 14-ə, 19-dan 25-ə

## Bakının qətiyyəti Qərb və Rusiyanın tənzimləmə xəttində uzlaşma yaradır



(əvvəli 1-ci səhifədə)

Əvvəla, ondan başlayaq ki, 44 günlük müharibədən sonra sözügedən prosesdə iki aydın xətt müşahidə edilməkdə idi. Yəni, danışıqların Rusiya və Qərb xətti. Əlavə, son bir ayda ABŞ xəttinin ayrılığı təəssüratı da formalaşdı. İki ildən artıq müddətdə özünü göstərmiş kollektiv Qərb və Rusiya təşəbbüslərinin gözlənilən effekti vermədiyi şəraitdə, düşünmək olardı ki, Vaşinqton məxsusi yanaşma irəli sürmək niyyətindədir.

Lakin Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşü əsnasında okeanın o tayından gələn açıqlamalardan belə nəticə hasil oldu ki, Birləşmiş Ştatlar özünü kollektiv Qərb nizamlanmasının tərkibi kimi görür. Başqa sözlə desək, “Brüssel formatı” “Vaşinqton prosesi”nin davamıdır. Hərçənd, birincinin tarix baxımından daha əvvələ aid olduğu məlumdur.

O da məlumdur ki, ötən il oktyabrın 6-da keçirilmiş Praqa Sammiti sonrası Fransanın tutduğu və Ermənistana da təsir göstərmiş destruktiv mövqe səbəbindən nəinki “Brüssel formatı”, ümumilikdə Qərb tənzimləməsinin perspektivi böyük sual altında idi. Ortada gerçək bir iflas mənzərəsi hökm sürürdü. Bu iflasın nəyə görə aradan qalxdığını da vurğulayacağıq. Çünki, əslində, hər üç formatın eyni anda aktivləşməsinin yalnız bir səbəbi var və yazımızın sonunda həmin səbəbə tam şəkildə aydınlıq gələcək.

***

**Əslində, ötən ilin oktyabrından sonra Azərbaycan və Ermənistan rəsmiləri arasında danışıqların aparılmaması, bütövlükdə, adlarını çəkdiyimiz hər bir nizamlama prosesinin iflası, vakuum təəssüratını yaradırdı.**

Belə bir məqamda, ümumən, Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması ilə bağlı danışıqların intensiv ruhu ilə tərs mütənasibliyin müşahidə edildiyi durumda, ABŞ-da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin mayın 1-dən 4-dək davam etmiş təmasları Ağ evi ayrı tərəf statusuna qaldırdı. Mövcud kontekstdə Vaşinqtonun Cənubi Qafqaz maraqlarının əlahiddəliyinə dair mülahizələr meydana çıxdı. Bu xüsusda, həmçinin Birləşmiş Ştatlar diplomatiyasının Bakı ilə İrəvan arasında sülh prosesinə daha həssas və səmimi yanaşdığı qənaəti də formalaşdı. Bu qənaət hətta o qədər böyük oldu ki, bəzi siyasilər ABŞ-ın vasitəçiliyini ötən əsrin 90-cı illərinin əvvəllərində Balkan yarımadasında müharibəyə son qoymuş Deyton danışıqları (keçmiş Yuqoslaviya ərazisində 1991–1995-ci illər arası Bosniyada vətəndaş müharibəsi, həmçinin Xorvatiya müharibəsinə son qoyan sazişdir. ABŞ-ın Deyton şəhərində 1995-ci ilin noyabrında razılaşdırıldıqdan sonra 14 dekabr 1995-ci ildə Parisdə bosniyalıların lideri Aliya İzzetbeqoviç, Serbiyanın prezidenti Slobodan Miloşeviç və Xorvatiyanın rəhbəri Franyo Tudcman tərəfindən imzalanmışdır) ilə müqayisə etməyə başladılar.

Əlbəttə, “Vaşinqton prosesi” fayda verdi. Ən azı ona görə ki, həmin vaxtadək donmuş kimi görünən sülh nizamlanması hərəkətə gətirildi. Yeri gəlmişkən, Vaşinqtonda danışıqların getdiyi müddətdə bəzi siyasi analitiklər məlum Deyton təcrübəsinə əsaslanaraq, ABŞ vasitəçiliyinin Avropada sülhün rəsmiləşməsinə vəsilə olacağı düşüncəsinə daldılar. Bu baxımdan Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də Belçikanın paytaxtında Aİ Şurası rəhbərinin vasitəçiliyi ilə keçmiş görüşündən gözləntilər böyük idi.

Həmin görüşün də sülh yolunda irəliləyiş uğuru ilə başa çatdığını vurğulaya bilərik. Orada tərəflərin bir-birinin ərazi bütövlüklərini tanıdıqlarını ifadə etdikləri məlumdur. Nəzərə alsaq ki, bu ifadəetmədə 86.6 min və 29,8 min kvadratkilometr (Azərbaycan və Ermənistan liderləri bu ərazidə bir-birinin suveren hüquqlarını tanıdıqlarını bəyan etdilər – red.) məntiqi öndə idi. Deməli, mövqelərdə xeyli konkretləşmələr yarandı.

Bununla, “Vaşinqton prosesi” ilə “Brüssel formatı” arasında müəyyən bir bağın mövcudluğu üzə çıxdı. Həmin bağ isə həm də onun təsdiqi idi ki, ABŞ Cənubi Qafqaz tənzimləməsini kollektiv Qərb təşəbbüslərindən ayrı tutmur. Əslində, bu, çox yaxşı haldır. Ona görə ki, indiki məqamda regionumuzun sülh gündəliyinə yanaşmada Birləşmiş Ştatların və “köhnə qitə”nin fikir ayrılıqlarının olmaması, rəqabətin yaşanmaması, ümumi dinamika baxımından faydalıdır.

***

**Diqqət yetirək, əgər “Vaşinqton prosesi” çərçivəsindəki dördgünlük danışıqların məntiqi davamı kimi Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin görüşündən sonrakı nəticə kollektiv Qərbin nizamlamaya eyni nöqteyi-nəzərdən yanaşdığının təsdiqi idisə, düşünmək mümkün idi ki, Moskvada mayın 19-da gedən danışıqlar tam fərqli baxışın ifadə meydanına çevriləcək. Mövcud xüsusda onu da fikirləşmək olardı ki, mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında geçəkləşəcək təmas “19 may”ın ruhunu əks etdirəcək və yekunda Rusiya Qərb hesabına “2:2” tarazlığı gətirəcək.**

***

**Lakin XİN rəhbərlərinin 19 may görüşündən sonrakı açıqlamalar ortaya fərqli mənzərəni çıxartdı. Nədir bu mənzərə?**

Məlum oldu ki, Rusiyanın Qərbə Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması xüsusunda yüklənirmiş kimi ritorikası ciddi əhəmiyyət daşımır. Yəni, Cənubi Qafqaz tənzimləməsinə münasibətdə Qərb və Rusiya yaxınlaşması var. Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun açıqlaması da təsdiqlədi.

Qeyd edək ki, birincisi, indiyədək “Vaşinqton prosesi” və “Brüssel formatı” çərçivəsindəki təmaslarla bağlı Kreml rəsmilərinin qısqanc münasibətlərini görmüşdük. İkincisi isə kollektiv Qərb nizamlamasından fərqli olaraq, Rusiya xətti sülh müqaviləsini çox uzaqda təsəvvürə gətirməsi ilə seçilmişdi. İndi isə Lavrov, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskva danışıqlarını onların Vaşinqtondakı və Brüsseldəki təmaslarının davamı kimi vurğuladı. Bu isə çox vacibdir. Deməli, Moskva duruma, belə demək mümkünsə, sıfır nöqtəli yanaşma məntiqindən uzaqdır. Ən əsası isə Kreml tərəfindən Qərb formatını heçə sayma tendensiyası yoxdur.

***

**C.Bayramovla A.Mirzoyanın mayın 19-da keçirilmiş Moskva görüşü əsnasında hələlik Rusiya daha konkret görünür.**

Yenidən vurğulayaq ki, Lavrov əvvəllərdə olduğu kimi, sülh müqaviləsinin imzalanmasını çox da uzaqda təsəvvür etmir, onun yekun sazişdən öncə delimitasiya və demarkasiya məsələlərinin həlli formulu isə ilk baxışdan, məntiqi təsir bağışlayır.

Başlıca məqamlardan biri də budur ki, Rusiya XİN rəhbəri daha Qarabağa status məsələsindən danışmır. Deməli, bu məntiqin qəbuledilməzliyi Kreml tərəfindən dərk edilməkdədir. Hərçənd, əvvəlki ritorikanı xatırlasaq, indi də Moskvanın vasitəçilik missiyasına ehtiyatlı yanaşmaq mütləqdir. O cümlədən, hər detalı ayrıca gözdən keçirməyə müstəsna zərurət var.

Çünki Rusiyanın məntiqindəki delimitasiya və demarkasiya məsələləri də kifayət qədər mürəkkəb və manipulyasiyalara açıq mövzulardır. Yəni, Kremlin lokal maraqlarını mövcud kontekstdə ortaya qoyub ümumi mənzərəyə yad ab-hava gətirməsi və bunun Ermənistana da təsir göstərməsi, ölkəni ümumi məcradan yayındırması mümkündür. Eləcə də, regionda kommunikasiyaların açılması, nəqliyyat əlaqələrinin bərpası xüsusunda da fərqli yanaşmaların önə çıxması reallığını diqqətdən kənara qoymaq olmaz. Onu da düşünək ki, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasından söz açırıqsa, burada Zəngəzur dəhlizi məsələsi də ön plana çıxacaq və çıxır da. Hər bir halda, Azərbaycan və Ermənistan liderlərinin mayın 25-də Moskvada Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə keçiriləcək görüşü öncəsi, kifayət qədər, nikbin mənzərə var.

***

**Həm Azərbaycan–Ermənistan münasibətlərində, həm də bu münasibətlərə baxışda uzlaşma şərtdir. Uzlaşmanı doğuran motivin üzərində dayanaraq, əvvəldə haqqında söz açdığımız səbəbə aydınlıq gətirək.**

Bəli, əminliklə deyə bilərik ki, hər iki uzlaşmanın formalaşmasına təsir göstərən mütləq amil Azərbaycanın mövqeyidir. Rəsmi Bakı 44 günlük müharibədə hərbi baxımından bir addım geri atmadığı kimi, müharibədən sonrakı diplomatiya meydanındandan da çəkilmədi. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə daim öz prinsiplərini qorudu, qətiyyət göstərdi, həmişə təzyiq dilində danışmağı bacardı.

Əminliklə onu da demək mümkündür ki, Bakı-İrəvan münasibətlərinin tənzimlənməsindəki hazırkı pozitiv mənzərə həm qeyd etdiyimiz hücum diplomatiyasının, həm də Ermənistana daimi təzyiq xəttinin məhsuludur. Bu təzyiqin nəticəsidir ki, bu gün İrəvanda, necə deyərlər, ara qarışıb, məzhəb itib.

Bu təzyiqin nəticəsidir ki, Qarabağdakı separatçı rejim daxilində çaxnaşma yaşanmaqdadır, oradakı hay töküntüləri, loru dildə desək, bir-birinin ətini yeməklə məşğuldurlar. Başqa yolları yoxdur...

Digər tərəfdən, lap hesab etsək, baş nazir Nikol Paşinyan mövqeyində səmimidir, ancaq onun daxildə yarana biləcək iğtişaşlardan ehtiyatlanıb nala-mıxa vurması yekunda qeyri-səmimi mühit formalaşdırmaqdadır. İndi nəhayət, o da üzərində Azərbaycanın gücü ilə yanaşı, daxildəki təzyiqi hiss etməli və özünə müqavimət hissini aşılamalıdır. Reallıqdan qaçmaq, yayınmaq olmaz. Çəmbər daralıb. Ölümün də əcələ faydası yoxdur.

Nikol Reykyavikdə demokratiyadan danışırdı. İndi Azərbaycanın təzyiqləri fonunda demokratiyasını imtahandan çıxarsın. Laçın yolunda Azərbaycana məxsus sərhəd buraxılış məntəqəsi var, artıq bu məsələ ölkəmizin legitim hüququ kimi qəbul edilir və haqqında söz açan yoxdur. Paşinyan buyursun İrəvanda bununla əlaqədar təzyiqləri də dəf etməklə, demokratiyasına immunitet, impuls gətirsin.

Nəhayət, Nikol, ümumən, Azərbaycanla normallaşma və sülh müqaviləsi xüsusunda qətiyyət göstərsin. Buyursun, xəstə erməni cəmiyyətinin öhdəsindən gəlsin. “Ölmək ölməkdir, xırıldamaq nə deməkdir?”, – deyimini rəhbər tutsun. Nəzərə alsın ki, “ölmək” prinsipsizlikdən yaxşıdır. Axı, hakimiyyət kürsüsündə qərar tapmağın da bir etikası olmalıdır.

***

**Mətləbdən yayınmayaraq, sonda bir daha bildirək ki, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Moskva danışıqları nikbinlik doğurmaqdadır.**

Bu ab-hava hər iki ölkə rəhbərlərinin mayın 25-də Rusiyanın paytaxtında keçirəcəkləri görüşün daha konkret nəticələr verəcəyini söyləməyə tutarlı əsas yaradır. Düşünsək ki, Qərb formatındakı razılaşmaların şifahiliyi ənənəsindən fərqli olaraq, Rusiya formatı üçün, bir qayda olaraq, hansısa sənədin imzalanması xarakterikdir, mayın 25-də də nizamlamanın indiki dinamikasına uyğun yazılı anlaşmanın ərsəyə gəlməsini gözləmək mümkündür. Hər bir anlaşmanın ölkəmizin maraq və mənafelərini əks etdirəcəyinə əminik.

***Əvəz CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

# Şoyqunun “sağ əli” də erməniprəst çıxdı

## *Rusiya Müdafiə Nazirliyi toponimlərimizi saxtalaşdırmaqda davam edir*

**Rusiyanın Müdafiə Nazirliyinin Azərbaycanın Qarabağ bölgəsindəki sülhməramlıların fəaliyyəti ilə bağlı hesabat yayıb. Hesabatda ənənəvi erməniprəst mövqeyini bir daha hiss etdirən MN növbəti dəfə Qarabağdakı Azərbaycan toponimlərini saxtalaşdırıb, bu adları erməni adları ilə əvəz edib.**

Hesabatda qeyd olunub ki, “Mardakert, Martuni rayonları və Laçın dəhlizində üç marşrut üzrə patrul fəaliyyəti həyata keçirilib”. İctimaiyyətə açıqlanan məlumatda bir neçə dəfə Xankəndi “Stepanakert”, Ağdərə “Mardakert”, Xocavənd isə “Martuni” kimi təqdim edilib. Hesabatdakı toponimlərin adlarından belə məlum olur ki, sanki, Rusiya sülhməramlıları Azərbaycan torpaqlarında deyil, Ermənistan ərazisində fəaliyyət göstərirlər.

Xatırladaq ki, bugünə qədər Rusiyanın Müdafiə Nazirliyi bir neçə dəfə oxşar saxtakarlığa yol vermişdir. Bu saxtakarlığa Azərbaycanın Müdafiə Nazirliyi rəsmi etirazını bildirmişdi. Nümunə üçün qeyd edək ki, 2022-ci ilin 25 noyabt tarixində Rusiyanın Müdafiə Nazirliyi Qarabağdakı yaşayış məntəqələrimizin adını uydurma erməni toponimləri ilə əvəz etmişdir. Rusiyanın Müdafiə Nazirliyinin bu addımına Azərbaycanın Müdafiə Nazirliyi elə həmin gün rəsmi etirazını bildirmiş, qarşı tərəfi bu kimi həssas məsələlərdə diqqətli olmağa səsləmişdir.



### Yalançı kimdir?

Azərbaycan tərəfinin bununla bağlı rəsmi etirazından sonra Rusiya Müdafiə Nazirliyi ilə sülhməramlılar arasında, sözün həqiqi mənasında, “siçan-pişik” oyunu başladı. Rəsmi Bakının etirazından sonra Rusiyanın Müdafiə Nazirliyi toponimlərlə bağlı məlumatı sülhməramlıların rəhbərliyindən adlığını bildirməklə bütün məsuliyyəti Qarabağdakı rus komandanlığının üzərinə atdı. Sülhməramlıların komandanlığı isə bildirdi ki, Müdafiə Nazirliyinə göndərdikləri məlumatlarda yer adlarını Azərbaycan toponimləri kimi qeyd etsələr də, sonradan həmin adlar nazirlik tərəfindən dəyişdirilir, qondarma erməni toponimləri ilə əvəz olunur.

Qarabağdakı Rusiya sülhməramlılarının komandanı general-mayor Andrey Volkov azərbaycanlı jurnalistlərə 2022-ci il 3 dekabr tarixli açıqlamasında ölkəsinin Müdafiə Nazirliyini açıq şəkildə saxtakarlıqda ittiham edərək dedi: “Buradan elan edirəm ki, biz bütün toponimləri dəstəkləyirik. Azərbaycan tərəfinin yer adlarını necə var, elə də yazırıq. Məsələn, yazırıq Xankəndi, Ağdərə... Toponimlərə hörmət edərək Azərbaycanda necə səslənirsə, elə də yazırıq. Rusiya–Türkiyə Birgə Monitorinq Mərkəzində bütün sənədlərdə yer adları Azərbaycan tərəfinin bizə göndərdiyi kimi yazılır. Rusiya Müdafiə Nazirliyinin saytında isə adlar başqa cür yazılır. Amma biz sülhməramlılar necə varsa, elə yazırıq. Siz yoxlaya da bilərsiniz”.

### Yada salaq ki...

Onu da qeyd edək ki, o vaxt baş verənlər Azərbaycan ictimaiyyəti arasında əsasən Andrey Volkovun erməniprəst mövqeyi, separatçılara loyal münasibəti ilə izah olunurdu. Bu səbəbdən də Andrey Volkovun Rusiyanın Müdafiə naziri Sergey Şoyqunun müşaviri, general-polkovnik Aleksandr Lentsovla əvəzlənməsi ölkəmizə yönəlik bu təxribatın ortadan qalxacağına ümid verirdi. Lakin son baş verənlər göstərdi ki, Rusiya sülhməramlılarının komandanlığındakı şəxslər dəyişsə də, problem dəyişməz olaraq qalmaqdadır. Rusiya MN məqsədli şəkildə Azərbaycan toponimlərini saxtalaşdırmaqda, ermənilərin bu müstəvidəki təxribatlarına ortaq olmaqdadır.

***Seymur ƏLİYEV***

# Məğlubiyyətdən dərs almayanlar

(əvvəli 1-ci səhifədə)

### İrəvan Rusiya silahına alternativ tapıb

Həm 2020-ci ilin 27 sentyabrına qədər, həm 44 günlük savaşda, həm də postmüharibə dövründə silah tədarükü ilə bağlı öhdəlikləri yerinə yetirmədiyinə görə Rusiyanı ittiham edən Paşinyan hökuməti ölkəyə silah idxalının qarşısını aldığına görə Azərbaycanın ünvanına hədyanlar yağdırırdı. Nəhayət, Paşinyanın komandası axtardığı silah-sursatı Hindistanda tapıb. Artıq yerli mediaya bu barədə məlumatlar sızdırılıb. Dehli və İrəvan arasında silah tədarükünə dair müqavilənin imzalandığı faktdır. Hayların mətbuatı Hindistanın “The Economic Times” nəşrinə istinadla, hətta, bu hərbi sövdələşmənin bəzi detallarını açıb. İrəvanla Dehli arasında hərbi müqavilə keçən il sentyabrın əvvəllərində imzalanıb. Razılaşmaya əsasən, Hindistan yaxın 3 ildə Ermənistana təxminən 250 milyon dollarlıq silah tədarük edəcək. Burada söhbət əsasən “Pinaka” raket sistemlərinin və onlara sursatın, eləcə də tank əleyhinə qurğuların satışından gedir.

Ermənistana satılacaq silah növləri barədə Hindistan mediası da bəzi materialları yayımlayıb. Məlumatlara görə, yaxın üç ildə Ermənistana dəyəri 150 milyon ABŞ dolları olan “ATAGS” haubitsaları tədarük ediləcək. Mərmisinin yiv ölçüsü 155 mm olan özüyeriyən topların atış məsafəsinin 48 kilometrə çatdığı, dağlıq şəraitdə sınaqdan çıxarıldığı və Hindistan ordusunun arsenalına qəbul edildiyi deyilir.

### Cənublu “qardaşından” isə PUA-lar alır

Son vaxtlar Ermənistanın qonşu İranla hərbi əməkdaşlığı genişləndirdiyi də gizlədilməsi mümkün olmayan faktdır. Yenə yerli medianın verdiyi məlumata görə, İrəvan İranla pilotsuz uçuş aparatlarının (PUA) tədarükü ilə bağlı razılığa gəlib. Tehran, həmçinin Ermənistan ordusu üçün zabit kadrlarının hazırlanması işində də dəstək verir.

***Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək.***

**Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndindən Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciətindən.**



Bəs Ermənistan kimi kasıb ölkə xaricdən bahalı silahları hansı vəsaitlə alır? Axı bu ölkənin maliyyə durumunun bahalı silah müqavilələri imzalamağa imkan vermədiyini hərbi deyil, mülki ekspertlər də çox yaxşı bilirlər. Otuz il uzanan işğalçılıq siyasətinin işğalçı Ermənistana heç bir fayda gətirmədiyi də məlumdur. Son məlumatlara görə, Hayastanın xarici borcu ümumi daxili məhsulun təxminən 60 faizinə bərabərdir. Cənubi Qafqazda ən bərbad iqtisadiyyata və ən kiçik büdcəyə malik bir ölkənin silah almağa həvəslənməsi absurd görünür. Ehtimallara görə, Ermənistan silah sövdələşməsində də xaricdən gələn qrantlara və erməni lobbisinin maliyyə dəstəyinə ümid bəsləyir. Ümumiyyətlə, bu ölkədə özgələrinin hesabına yaşamaq və dövləti idarə etmək bir növ ənənə halını alıb – ən zəruri xərclər belə xarici ianələr hesabına maliyyələşdirilir ki, bu da məqbul variant sayıla bilməz.

### Hayastan yeni hərbi dərs üçün darıxıb?

Son vaxtlar Hindistandan və İrandan silah-sursat tədarükünü gücləndirən, Fransanın İrəvandakı səfirliyi xətti ilə yeni hərbi yardım layihəsinə baş vuran Ermənistanın müharibə hazırlıqları aşkar görünməkdədir. Onun 2023-cü il üçün müdafiə büdcəsini 47 faiz artırması, hərbi xərclərə ilk dəfə 1 milyard dollar ayırması heç də İrəvanın sülh məramından xəbər vermir. Üstəlik demoqrafik fəlakətdən əziyyət çəkən ölkədə bu arada səfərbərliklə bağlı tədbirlər görülür. Kişilərin, xüsusən də gənclərin ölkədən çıxmasına qoyulan məhdudiyyətlər daha da sərtləşdirilir. “Hraparak” qəzeti yazır ki, son vaxtlar 48 yaşa qədər kişilər təlim toplanışlarına çağırılır. Nəşr açıq şəkildə bildirir ki, təcili təlimlər Hayastanın müharibə hazırlığı ilə bağlıdır.

Əslində, İrəvanın Hindistan və İrandan silah tədarük etməsi faktının özü onun ordusunun beynəlxalq standartlara cavab vermədiyini söyləməyə əsas verir. Amma Hayastan heç vaxt iriçaplı silah alıcısı rolunda olmayıb, buna imkanı çatmayıb. Həm də bu səbəbdən Paşinyan hökuməti dünyanın nüfuzlu silah istehsalçıları sırasında yer almayan Hindistanla və İranla sövdələşməyə üstünlük verir. İrəvan bu iki “qardaşı” ilə əvvəllər də silah alış-verişi edib.

Fəqət Hayastan hakimiyyətinin unutduğu vacib məqamlardan biri də Azərbaycan Ordusunun malik olduğu gücdür. Onların bu gücü bir neçə dəfə öz üzərlərində hiss etmək şansı olub. Aprel döyüşlərini, Günnüt və Tovuz əməliyyatlarını buna missal göstərmək olar. Amma haylar ordumuzdan ən böyük dərsi Vətən müharibəsində aldılar. 300-dən çox yaşayış məntəqəsi döyüş nəticəsində işğaldan azad edildi. Silahın qüdrətindən, milli ruhun iradəsindən yoğrulan “dəmir yumruğ”un dadını görən yağı Ağdam, Kəlbəcər və Laçın rayonlarını isə döyüşsüz təslim etdi.

Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer tutur. Dövlət başçısının birbaşa tapşırığı və idarəçiliyi ilə postmüharibə mərhələsində ordunun təchizatı daha da möhkəmləndirilib. İndi Azərbaycanın Müzəffər Ordusu düşmənin cavabını ən layiqli şəkildə verməyə hazırdır.

Amma revanş götürmək xülyasına düşən hay-daşnaklar bu dəfə Azərbaycan Ordusundan cavabını iki il səkkiz ay əvvəllə müqayisədə daha sərt, “dəmir yumruğ”un zərbinin isə ömürlük olacağını unutmamalıdırlar.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

**Ekspert rəyi**



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

Həmişə olduğu kimi, Ermənistanın hərbi-siyasi rəhbərliyi bu gün də konstruktiv mövqe tutmaq istəmir, yenə hansısa miflərə inanmaqla məşğuldur.

Son zamanlar rəsmi İrəvanın bəzi ölkələrlə hərbi müqavilələr bağlaması ilə bağlı məlumatlar yayılır və hətta real nəticələr var. Artıq Fransa, Hindistan və cənub qonşumuz İran bu sövdələşmələrdə iştirak edirlər. Bu yöndə fəaliyyət daxildəki revanşist qüvvələrin fəallaşmasına və Hayastanın yeni müharibə barədə düşünməsinə müəyyən zəmin yaradıb. Amma Ermənistandakı praqmatik siyasətçilər, ağıllı adamlar yaxşı bilirlər ki, ən doğru yol Azərbaycanla sülhə gəlməkdir. Bununla Ermənistanın qarşısında iqtisadi cəhətdən inkişaf etmək, sosial sahədə problemlərini yoluna qoymaq üçün perspektivlər açıla bilər.

Xarici havadarlarının diqtəsilə bölgədə vəziyyəti gərginləşdirməyə çalışan İrəvan nə edirsə-etsin, heç nəyə nail ola bilməyəcək. Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı Prezident İlham Əliyev onlara öz mesajını çatdıraraq dedi ki, əgər istər Ermənistanın daxilindən, istərsə də xaricdən Azərbaycan üçün hər hansı təhlükə yaranarsa, Bakı dərhal adekvat addım atacaq. Bu xəbərdarlıq Hayastanın hərbi-siyasi rəhbərliyi ilə yanaşı, onun əcnəbi himayədarlarına da ünvanlanıb.

Ermənilər nə qədər kənar sifarişlə silahlansalar da, bununla heç nəyə nail ola bilməyəcəklər. Cənab Prezidentin siyasi iradəsi və “dəmir yumruq” hər zaman onların başının üstündə olacaq.

---

**Mayın 16-da İtaliyanın ANSA agentliyi Gürcüstanın Batumi limanı vasitəsilə Ermənistana göndərilməsi planlaşdırılan 2 ton 734 kiloqram xalis kokainin ölkənin Cənubi Kalabriya regionunun Coya-Tauro şəhərinin limanında müsadirə edilməsinə dair yaydığı məlumat hayların gerçək xislətinin ortaya çıxarılması baxımından böyük əhəmiyyət daşıyır.**

# İrəvanın “bananlı narkotik” biznesi

Məlumata görə, kokain paketləri Ekvadorun Quayaquil şəhərindən əvvəlcə İtaliyaya göndərilib, sonra isə Ermənistana istiqamətlənməli imiş. Soyuducuda saxlanılan və uzunluğu 12 metrdən çox konteynerlərdə olan kokain 78 ton banandan ibarət meyvə yükünün içərisində gizlədilib.

Beynəlxalq narkotik ticarəti ilə mübarizə məqsədi daşıyan və nəticədə üç tona yaxın kokainin müsadirə edilməsinə səbəb olan əməliyyat Cənubi Kalabriya regionunun mafiya ilə mübarizə idarəsinin rəhbərliyi və koordinasiyası ilə həyata keçirilib. Bununla bağlı idarənin yaydığı məlumatda bildirilib: “Əldə olunan müstəsna nəticə kəşfiyyat fəaliyyətinin və Cənubi Amerikadan Qara dənizə gedən, Kalabriya limanından keçən ticarət marşrutlarının daimi təhlilinin nəticəsidir. Məlumat bazaları vasitəsilə həyata keçirilən çarpaz yoxlamalar əməliyyat-istintaq fərziyyələrini və kokainin gizlədildiyi iki soyuducu qutunun təftişinə davam etmək ehtiyacını təsdiqlədi. Kokain uzun və çətin axtarış əməliyyatlarından sonra mürəkkəb skanerlərin köməyi ilə narkotiklərə qarşı mübarizə aparan “Joel” adlı itin köməyi ilə müəyyən edilib. Müsadirə edilmiş son dərəcə təmiz keyfiyyətdə və mükəmməl konservasiya vəziyyətində olan narkotik maddə narkotacirlərə 800 milyon avrodan çox gəlir gətirərdi”.

***

**Sirr deyil ki, Ermənistan regionda narkotik qaçaqmalçılığında əsas tranzit ölkələrdən hesab olunur.**

Hayastan “ağ ölüm”ün qaçaqmalçılığının intişar tapmasına “mühüm töhfələr” verib. İndiyədək əsasən Əfqanıstandan göndərilən narkotik vasitələr, xüsusilə heroin, tiryək və metamfetamin İrandan keçməklə narkotrafikin “Şimal marşrutu” yolu ilə Ermənistan üzərindən Avropada “qara bazar”a çıxarılırdı. İndi isə məlum olur ki, ölkə həm də Cənubi Amerikadan – “kokain kralı” ləqəbli məşhur kolumbiyalı narkobaron və terrorçu, 1980-ci illərin sonunda dünya kokain bazarının 80 faizinə nəzarət edən Medelin kartelinin (inhisarçılıq və yüksək mənfəət əldə etmək məqsədilə qurulan ittifaq) başçısı Pablo Eskobarın doğma materikindən narkotik daşınmasını təmin edirmiş. Bu işlə məşğul olanları baş nazir Nikol Paşinyandan öncəki kriminal rejimlər – Robert Koçaryan – Serj Sarkisyan cütlüyü bilavasitə himayə edirdi. Sarkisyan iqtidarı dövründə bu işin koordinasiyasını onun qardaşı oğlu Narek həyata keçirirdi. N.Sarkisyan əmisinin hakimiyyətdən gedişindən sonra narkotik ticarətində və qanunsuz silah saxlamaqda ittiham olunaraq həbs olunmuşdu. İndi isə deyəsən, bu işi hakimiyyətə gəlişinin beşinci ili bugünlərdə tamam olan Paşinyan iqtidarı davam etdirmək niyyətindədir.

İtaliya hakimiyyət orqanlarının rəsmi məlumatının açıqlanmasından cəmi bir gün sonra – mayın 17-də Ermənistan milli təhlükəsizlik xidməti bir tona yaxın (təxminən, 250 milyon avro dəyərində) kokain gətirildiyini və bunun aşkarlanaraq müsadirə edildiyi barədə açıqlama yayıb. “Ermənistanda fəaliyyət göstərən və meyvə idxalı ilə məşğul olan kompaniya Ekvadorda şirkətdən sifariş etdiyi məhsulla birlikdə tranzit ölkələrin – Panama, İtaliya və Gürcüstan ərazisindən keçməklə ölkəyə narkotik maddə idxal edib. Təxminən bir ton ağırlığında olan kokain milli təhlükəsizlik xidmətində saxlanılır. İstintaq davam edir”, – deyə məlumatda bildirilir. İtaliyadan məlum açıqlamanın verilməsindən bir gün sonra Paşinyan iqtidarının hərəkətə keçərək bir ton narkotik maddə aşkarladığını iddia etməsi gözə kül üfürmək, mümkün tənqidlərdən yayınmaq təsiri bağışlayır.

Ancaq Paşinyan iqtidarının bu məsələdən həç xəbəri olmamış kimi davranması onun sudan quru çıxmasına gətirməyib. Ən azı, ölkədə müxtəlif səviyyədə səslənən tənqidlər belə deməyə əsas verir. Yaranmış qalmaqala münasibət bildirən yerli siyasi texnoloq Karen Koçaryan deyib ki, N.Paşinyan hökuməti ötən illər ərzində yalnız iki sahədə – narkotik və oyun biznesində (qumarda) artımı təmin edə bilib: “Aydındır ki, bu yük Ermənistanda tamamilə satış üçün nəzərdə tutulmayıb. Üstəlik, bu, narkotiklərin tranziti ilə bağlı nə birinci haldır, nə də sonuncu olacaq. Ölkə narkoticarət zonasına çevrilib. Bundan yerli narkobaronlar da istifadə edirlər. Ümumilikdə, indiki siyasi elitanın hakimiyyəti illərində alnız iki sahədə – narkotik ticarəti və oyun biznesində kəskin artım olub.



**Ekspert rəyi**

**İlyas HÜSEYNOV,**
**politoloq**



Ermənistan uzun müddətdir ki, qeyri-leqal biznesin dövriyyəsində əsas ölkələrdən biri hesab olunur. Xüsusilə vurğulamaq lazımdır ki, narkotik vasitələrin dövriyyəsi Ermənistanda geniş vüsət alıb. Kokain qalmaqalı isə nəinki Hayastanda, böyük bir coğrafiyada rezonans doğurub. Çünki külli miqdarda narkotikdən söhbət gedir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Rusiyaya tətbiq olunan sanksiyalardan yayınmaq bu gün Ermənistanda əsas gəlir mənbəyidir. Haylar dövlət büdcəsinin gəlirlərini elə bunun hesabına təmin edirlər. Bu məsələ də artıq ABŞ tərəfindən diqqətə alınır.

Bir müddət öncə baş nazir Nikol Paşinyanın ailəsinin adı siqaret qalmaqalında hallanmışdı. Siqaretdən əldə olunan gəlir birbaşa onun ailəsinə yönəlirdi. Bütün bunlar onu deməyə əsas verir ki, Paşinyan hazırda qeyri-leqal biznesdə və qeyri-rəsmi dövriyyə ilə məşğul olur. Bununla da özünün şəxsi vəsaitini dəfələrlə artırır. Belə bir təəssürat formalaşır ki, bu, onun üçün adi bir haldır. Ermənistanda hakimiyyəti mənimsəyən bu şəxsin öz varidatını getdikcə artırması açıq-aydın hiss olunur. Belə böyük narkotik partiyasının ölkəyə keçirilməsi rəsmi dairələrin, siyasi elitadakı şəxslərin razılığı olmadan baş verə bilməzdi.

***

**Parlamentdəki müxalifətçi “Hayastan” fraksiyasının deputatı Andranik Tevanyan isə deyib ki, Ermənistanın milli təhlükəsizliyinə təhdidlər ölkə ətrafında gedən proseslərdən və narkotiklərin dövriyyəsinin artmasından irəli gəlir.**

Onun sözlərinə görə, hazırda Ermənistanda faktiki olaraq 1,4 ton kokain dövriyyəsi var ki, bu da 1 milyard dollardan çox vəsait deməkdir: “Bunun hakimiyyətlə əlaqəsi olmaya bilməz. Əslində, Ermənistan hakimiyyəti narkomafiyaya çevrilib. Bunu iddia etmək üçün ciddi əsaslarımız var. Düşünmürəm ki, Ermənistanda kimsə hakimiyyətlə əlbir olmadan 1 milyard dollarlıq dövriyyə təmin edə bilsin. Hakimiyyətlə heç bir əlaqəsi olmayan şəxs belə riskli addım ata bilməzdi. Üstəlik, bunun yeganə hal olub-olmadığını bilmirik. Burada sual yarana bilər ki, Nikol Paşinyan və onun ətrafı 1 milyard dollardan çox pulu haradan əldə ediblər? Biz buna aydınlıq gətirilməsini tələb edirik”.

Tevanyan xatırladıb ki, Ermənistan Şəhərsalma Komitəsinin keçmiş rəhbəri Vaaqn Vermicyan bir müddət əvvəl sement adı ilə ölkəyə kokain gətirildiyini bəyan edib və bundan sonra həbs edilib: “Bəyan edirdilər ki, korrupsiya yoxdur. Amma indi faktiki olaraq gömrük orqanlarından öyrənirik ki, banan adı ilə bir ton narkotik qaçaqmalçılıq yolu ilə gətirilib. Bu, o deməkdir ki, Paşinyanın sistemli korrupsiyanın aradan qalxması ilə bağlı dedikləri yalandır”.

Stenford Universitetinin politologiya üzrə doktoru Artur Xaçikyan Ermənistan milli təhlükəsizlik xidmətinin qarşısında jurnalistlərə açıqlamasında deyib ki, ölkədə narkotik epidemiyası var, artıq məktəblərə, universitetlərə yayılıb, hətta orduda, yeniyetmələr arasında bununla bağlı xəbərlər var. A.Xaçikyanın sözlərinə görə, erməni gəncliyi məhv edilir, cəmiyyət, sözün əsl mənasında, yuxuya verilir: “Bu, böyük fəlakətdir, xalqımızın sonunu gətirə biləcək hərəkətdir”.

Xaçikyan “Külli miqdarda narkotik maddənin Ermənistana gətirilməsi ilə hakimiyyətin əlaqəsi varmı?” sualına ikibaşlı cavab verib: “Bu fenomenə qarşı daha kəskin mübarizə aparılsa, yaxşı olardı. Bunun hər yerdə yayıldığını hamımız bilirik”. O əlavə edib ki, rəsmi rəqəmlərə görə, Ermənistanda narkotikdən istifadə 95 faiz artıb.

Qeyd edək ki, Ermənistanın cari ildə hərbi xərcləri 47 faiz artaraq ilk dəfə 1 milyard dolları keçib. Rəsmi İrəvan silah alqı-satqısına dair son vaxtlar Hindistanla müqavilələr imzalayıb. İqtisadi imkanları zəif bir ölkənin bu sövdələşmə üçün vəsaiti haradan əldə etdiyi ekspertlər arasında müzakirə olunurdu. Zənnimizcə, narkotik qaçaqmalçılığından Ermənistanın böyük pullar qazanmasının aşkara çıxması bu məsələyə də aydınlıq gətirmiş oldu.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

# Ümummilli lider: milli ədəbiyyat və milli ideologiya

## (Cəlil Məmmədquluzadə yaradıcılığına münasibət kontekstində)

**Ümummilli liderimiz Heydər Əliyevin ictiumai-humanitar mövqeyinə görə, Azərbaycanda estetik düşüncə, bir qayda olaraq, ictimai düşüncəni qabaqlamış, daha doğrusu, onu öz arxası ilə aparmışdır. Milli ictimai düşüncənin formalaşmasında estetik düşüncənin həlledici rol oynadığını həmişə vurğulayan ulu öndər son nəticədə müasir dövlətçiliyimizin ilk nümunəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnən azərbaycançılıq ideologiyasının formalaşmasında XX əsrin əvvəllərinin ədəbiyyat və mədəniyyət xadimlərinin, elm və fəlsəfi fikir daşıyıcılarının həlledici rol oynadıqları, milli ideoloqlar kimi üzərlərinə düşən vəzifəni axıra qədər inamla, vicdanla yerinə yetirdikləri qənaətində idi.**



O, xalqımızın Vətən sevgisinin dərinləşməsində, milli şüurun inkişafında hər bir sənət adamının rolunu heyrətamiz dərəcədə dəqiq bilir, onların yaradıcılığını da məhz bu prizmadan dəyərləndirirdi.

Ümummilli liderin XX əsrin əvvəllərinin iki böyük ədəbi cərəyanından birinin -- tənqidi realizmin nəhəng nümayəndəsi olan Cəlil Məmmədquluzadəyə verdiyi dəyərin əsasında da onun əsərlərinin milli tərəqqidə oynadığı mühüm rol dayanırdı. Heydər Əliyev Mirzə Cəlilin yaradıcılığında dövlətçiliyimizin prinsiplərinin və ideologiyamızın müəyyənləşməsi üçün həqiqi milli zəmin görürdü. O, ədəbi prosesə müasirliyə xidmət prizmasından yanaşır, XIX əsr və XX əsrin əvvəllərinin sənətkarlarının, eyni zamanda, C.Məmmədquluzadənin bədii yaradıcılığında, dünyagörüşündə, publisistik fəaliyyətində milli mənafeyə xidmət edən əsaslı cəhətlər görür, bu amillərdən istifadəni, onlara yaradıcı yanaşmanı müstəqilik dövrünün siyasi hərəkatının prioritetlərindən hesab edirdi. O, milli ədəbi-mədəni hərəkatın tarixinə siyasi düşüncənin zəngin mənbəyi kimi yanaşırdı.

Heydər Əliyevin milli ədəbi hərəkatımızın böyük nümayəndələri haqqında çıxışlarını oxuyanda hiss olunur ki, o, ruhən özünü H.Caviddən, C.Məmmədquluzadədən, N.Nərimanovdan, C.Cabbarlıdan ayırmır, özünü bütövlükdə XIX əsrin ortalarından başlayan maarifçilik hərəkatının, maarifçi ədəbiyyatın böyük nümayəndələri, "Molla Nəsrəddin"çilər, "Füyuzat"çılarla bir yerdə hiss edir, qədəm qoyduğumuz müstəqillik hərəkatında, müstəqilliyimizin "dönməzliyi və əbədiliyi" uğrunda mübarizədə onların ideyalarını mənəvi bayrağımız kimi təsəvvür edir. Böyük siyasətçi müstəqil dövlətimizin, humanitar düşüncəmizin, dövlətçilik fəlsəfəmizin irəliyə doğru hərəkətini onların fikirlərinə istinadla, onların fikirlərini mənəvi dayaq, təməl prinsipi götürməklə təmin etməyin mümkünlüyü haqqında düşünür. Buna görə də, Heydər Əliyev üçün M.F.Axundzadə, H.Zərdabi, N.Vəzirov, yaxud Mirzə Cəlil, Sabir, Cavid və başqaları, ilk növbədə, milli varlığımızın şərəf tarixidir, lakin bu tarixdən də çox onlar bizim müasirlərimizdir.

Böyük sənətkarın ev-muzeyinin açılış mərasimində onun dedikləri konkret məzmunu ilə C.Məmmədquluzadəni nəzərdə tutursa, metaforik- simvolik məzmunu ilə bütövlükdə XIX əsrin ikinci yarısından başlayan milli ədəbi-mədəni hərəkatımızın bütün öncüllərinə aiddir: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o, bizim müasirimizdir. O, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır.

Əsrimizin əvvəllərində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bugünkü vəziyyətdən çıxarmaqda bizə kömək edir."

Tarixə nəzər yetirsək, görərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqları əsasən ədəbiyyat və sənət adamları idi. Bugünkü müstəqil dövlətimiz AXC-nin həm də ona görə varisidir ki, milli dövlət atributlarımızdan tutmuş ideologiyamıza qədər, hamısının təməlində tarixi ənənələr dayanır.

"Biz indi müstəqil dövlət kimi öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu baxımdan, Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda, ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir...Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir."

Ulu öndər bu qənaətdə idi ki, "onun (C.Məmmədquluzadənin – T.S.) daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir". C.Məmmədquluzadənin estetik idealı kimi qəbul edə biləcəyimiz bu deviz Heydər Əliyevin siyasi dərkində milli özünüdərk, milli mövcudluq və milli birliyin estetik ifadəsi idi. Onun "Anamın kitabı"na verdiyi yüksək dəyər, ilk növbədə, yazıldığı zamanın ictimai-siyasi prosesləri ilə birbaşa əlaqələnir. O, çox dahiyanə şəkildə zamanın estetik hərəkatı ilə siyasi hərəkatı arasındakı üzvi əlaqəni görə bilirdi. Ümummilli lider deyirdi: "Çünki bizim xalqımız, respublikamız Şərqin və Qərbin, Şimalın və Cənubun qovuşuğundadır. Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur". O, "Anamın kitabı"nın bu "təsirlər"ə mədəni müqavimət hərəkatının nəticəsi kimi yaranması məsələsini qoyur, hələ müstəqil yaşamaq imkanlarını tam gerçəkləşdirə bilməmiş dövlətimiz, cəmiyyətimiz üçün bu cür təsirlərin çox qorxulu olduğunu vurğulayırdı.

Ümummilli lider nəzərə alırdı ki, "ölkəmizdə siyasi dillə desək, "güc" dövlətlərinin və yaxud qonşu dövlətlərin hər birinin öz maraqları vardır və içtimai-siyasi həyatımıza bu "maraqlar çərçivəsində təsirlər" qaçılmazdır. Deməli, yaşamaq, mövcud olmaq, müstəqilliyimizin "əbədiliyi və dönməzliyi"ni təmin etmək üçün bu təsirlərə qarşı əks-təsir, müqavimət hərəkatı olmalıdır. O, müstəqililiyimizin çətin günlərində ziyalı kütləsinin diqqətinə çatdırırdı ki, "...xalqımızın dahi simaları Azərbaycan dilini yaşadıb, Azərbaycan milliliyini yaşadıb, milli şüuru yaşadıb, milli məfkurəni yaradıblar". "Anamın kitabı"nda milli birliyə çağırışın mükəmməl estetik ifadəsini görür, milli ideologiyamızın formalaşmasında bu tip əsərlərin ənənə formalaşdırmaq imkanlarından söz açırdı. Ancaq ulu öndər "Anamın kitabı"na bir də ona görə həssaslıqla yanaşırdı ki, Mirzə Cəlilin əsrin əvvəllərində müşahidə etdiyi sosial bəlanın – milli təfriqə hallarının bir çox cəhətlərinin əsrin sonunda – müstəqilliyimizin ilk illərində də qabarıq təzahürünü müşahidə edir, "Anamın kitabı"nda yazılan, təsvir olunan meyillər bu gün də cəmiyyətimizdə özünü büruzə verir" -- deyirdi .

Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda hərəsi bir tərəfə çəkən, hərəsi bir dövlətin təsiri altında olan qüvvələr milli birliyimizə, milli dövlətçiliyimizə çox real bir təhlükə idi, hətta onu da düşünsək ki, torpaqlarımızın iyirmi faizinin işğalında bu təfriqəçiliyin həlledici rolu olmuşdu, onda dahi rəhbərin böyük sənətkara həsr edilmiş nitqində "Anamın kitabı" əsəri üzərində bu qədər təfərrüatlı dayanmasının həlledici səbəbinin onun müasirliyi ilə bağlı olması aydın olar.

Heydər Əliyev Cəlil Məmmədquluzadənin təkcə əsərlərində, yaradıcı fəaliyyətində deyil, həm də şəxsiyyətində müasir ziyalılara örnək olacaq əsaslı keyfiyyətlər görürdü. Yaşadığı çətin və taleyüklü zamanda onun şəxsiyyət bütövlüyünə, ictimai idealını qoruyub saxlamasına, bu ictimai idealı milli mənafe naminə estetik ideala çevirib əsərlərində əks etdirməsinə, başqa sözlə, ziyalı nəhəngliyinə diqqət yönəldirdi.

Ulu öndər demək istəyir ki, mollaxana təhsili onu İran təsirinə salıb Molla Məhəmmədəliyə, rus təhsili onu Rüstəm bəyə çevirə bilmədi. Halbuki belə təhlükə o zamankı cəmiyyət üçün tam real idi. Heydər Əliyevin sözlərinin alt qatında dayanan odur ki, Mirzə Cəlil aldığı təhsilin, tanış olduğu mədəniyyətlərin təsiri altına düşüb, öz milli mənsubiyyətini itirmədi.

Milli mənsubluq müxtəlif təsirlər altında qalaraq əriyib itmədi, əksinə şəxsiyyət bütövlüyü, ictimai ideal mükəmməlliyi ona aldığı təhsili də, mənimsədiyi mədəniyyətləri də milli mənafeyə tabe tutmağa imkan verdi və o, Mirzə Cəlil oldu, yəni millətinin əsl oğlu oldu.

Heydər Əliyev Mirzə Cəlil fenomeninə bu istiqamətdə onu görə yanaşır ki, tarix sanki təkrarlanırdı. XX əsrin əvvəlləri kimi, XX əsrin sonları da Azərbaycan xalqı üçün taleyüklü zaman idi. Elə bir zaman idi ki, ziyalıdan, sənətkardan aldığı təhsili milli tərəqqi naminə istifadəni zərurətə çevirirdi. O, məsələni belə qoyur: "Fəqət hamı Mirzə Cəlil ola bilmir. Çox bəlalarımız da bundan qaynaqlanır."

Ona görə də Azərbaycanın gələcəyi üçün bütün məsuliyyəti öz üzərinə götürən ulu öndər ziyalı kütləsi, ictimai-siyasi qüvvələr arasındakı parçalanmalardan Vətənin, Azərbaycanımızın taleyi naminə imtina etməyə, milli mənafe, müstəqilliyimizin gələcəyi naminə birləşməyə çağırır. Ümummilli lider müstəqililiyimizin ilk illərində Azərbaycan xalqının, o cümlədən ziyalı təbəqəsinin, ictimai-siyasi qüvvələrin qarşısında duran vəzifəni Elmlər Akademiyasında ziyalılarla görüşündəki çıxışında (21 dekabr 1993-cü il) aşağıdakı kimi müəyyənləşdirirdi: "Xalq birləşməlidir. Xalqın ağlı, zəkası, biliyi birləşməlidir".

Heydər Əliyev bu vəzifənin reallaşmasında ədəbiyyatın gücünə müstəsna əhəmiyyət verir, ədəbiyyatımıza qeyri-sağlam münasibətlərə, onun düzgün dərk edilməməsinə, böyük sənətkarların əsərlərinin bütün zamanlar üçün aktuallığına diqqət çəkirdi. Məhz bu mənada onun C.Məmmədquluzadənin "Ölülər" əsəri üzərinə dönə-dönə qayıtması, sözün həqiqi mənasında, müstəqillik dövrünün qarşıya qoyduğu məqsədlərdən irəli gəlirdi. Əslində, təkcə "Ölülər"in yox, bütövlükdə, C.Məmmədquluzadənin həyat və fəaliyyətinin, yaradıcılığının müstəqillik dövrünün ədəbi-elmi düşüncəsi ilə yenidən dərkinə olan ehtiyacı önə çəkirdi.

Ümummilli liderə görə, Mirzə Cəlil irsi nə qədər öyrənilibsə də, onun yenidən araşdırılması, müstəqillik dövrünün ədəbiyyatşünaslıq düşüncəsi ilə, yeni metodoloji meyarlarla hərtərəfli öyrənilməsi günümüzün tələbidir. O, böyük sənətkarın anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsindəki nitqində deyirdi: "Doğrudur, Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini, yaradıcılığını araşdıracaq, onu tədqiq edərək yeni-yeni kəşflər edəcəkdir".

Bu gün "Ölülər" əsərinə ədəbi-elmi mühitimizdəki fərqli yanaşmalar ümummilli liderin nə qədər haqlı olduğunu sübut edir.

Müstəqillik illərinə qədər ədəbiyyatşünaslığmız iddia edirdi ki,"əsərdə din daha vacib, daha ciddi sosial məsələlərin həllinə maneə və əngəl kimi təsvir edilən bir tənqid obyekti idi" (Y.Qarayev. Realizm: sənət və həqiqət. Bakı. Elm,1980,s.202).

"Din tiryəkdir" deyən siyasi rejimin ədəbiyyatşünaslıq qarşısında qoyduğu vəzifələrdən doğan missiyanın yerinə yetirilməsi təşəbbüsüdür.

Müstəqillik dövrünün siyasi düşüncəsi "din tiryəkdir" tezisini birmənalı şəkildə rədd edir. Mənsub olduğumuz dinə münasibətin siyasi-ideoloji konturlarını ümummilli liderimiz riyazi dəqiqliklə cızır: "Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq" (Sənətkarın anadan olmasının 125 illiyinə həsr edilmiş nitqindən).

"Ölülər" və İslam dini" məsələsinə siyasi və elmi yanaşmanın da ən düzgün istiqamətini ümummilli lider həmin nitqində, müstəqilliyimizin ilk illərində müəyyənləşdirmişdir. Ulu öndər deyirdi: "Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilib və çox hallarda, o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunubdur. Təəssüf ki, o dövrdə, bəlkə, bu belə idi. Çünki bizim həyatımızda ateist tərbiyəsi hökm sürürdü, din inkar olunurdu və bu əsər, bəlkə də, bu baxımdan həmin istiqamətdə xidmət göstərirdi. Ancaq Mirzə Cəlil bu əsəri yazarkən heç də dinə müxalif çıxmayıbdır, əksinə, bu əsərlə, İslam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışıbdır".

Bu fikirlər bizə imkan verir ki, "Ölülər"in mətninə istinadla onun "din əleyhinə" yazılmış əsər olması tendensiyasını rədd edək. Məhz indi ədəbiyyatşünaslığımızın qarşısında "Ölülər"in bədii mətn materialında İslam dininin xalqımız üçün "böyük mənəvi dəyər" mənbəyi kimi təsvirinin mahiyyətini açmaq vəzifəsi durur. Heydər Əliyevin mülahizələrini metodoloji çıxış nöqtəsi kimi alsaq, deyə bilərik ki, Mirzə Cəlil mənsub olduğu İslam dinini inanc sistemi kimi qəbul edir, onun hökmlərinin əxlaq və mənəviyyatımıza müsbət təsir imkanlarına inanırdı. Bu isə o demək idi ki, ədəbiyyatşünaslığımızın qarşısında duran əsas vəzifə Heydər Əliyevin əsərə metodoloji baxışının perspektivlərini görmək və bunu elmi yanaşmalarla ifadə etməyə çalışmaqdır. Məsələnin bu tərəfi bizi müstəqillik dövrünün düşüncəsi ilə əsərdə (əslində isə bütövlükdə, bu dövrün ədəbiyyatında) İslam fəlsəfəsinin bədii əksini aşkarlamağa, mahiyyətcə isə "Ölülər"in (bütövlükdə, bu dövrün ədəbiyyatının) həqiqi məzmunu və ideyasını ortalığa qoymağa istiqamətləndirir.

Ümummilli liderin ədəbiyyatla bağlı düşüncələri, konkret əsərlərlə bağlı mülahizələri ilə dərindən tanış olduqca onun mülahizələrindəki professionallıq diqqəti çəkməyə bilmir. Şübhəsiz, Heydər Əliyev öz stixiyası etibarilə dərin siyasi təfəkkür sahibi idi. Amma onun dahiyanə bir istedad sahibi olması, təfəkküründəki universiallıq dərindən tanış olduğu hər bir əsər, yaradıcılığına hərtərəfli bələd olduğu sənətkar haqqında professional ədəbiyyatşünaslıqla sağlam rəqabətə girə biləcək mövqe nümayiş etdirməsinə imkan verirdi. Mirzə Cəlil yaradıcılığına konseptual baxışları bunun təkzibedilməz dəlilidir.

***Təyyar SALAMOĞLU,***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

# AİJA-nın futbol komandası İstanbulda

## Ulu öndərin 100 illik yubileyi şərəfinə "Qalatasaray"la qardaşlıq oyunu

**İstanbulda dünya şöhrətli siyasətçi və dövlət xadimi, türk dünyasının lideri Heydər Əliyevin 100 illiyi şərəfinə Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA), Azərbaycan Minifutbol Federasiyasının (AMF), "Azfar Group"un, Beynəlxalq Futvole Federasiyasının dəstəyi ilə idman jurnalistlərindən ibarət millimizlə "Qalatasaray" əfsanələrinin qardaşlıq görüşü keçirilib. Oyun klubun UEFA kubokunu qazandığı gündən 23 il sonra baş tutub.**




Oyundan əvvəl "Qalatasaray"ın prezidenti Dursun Özbək, AİJA prezidenti Eldar İsmayılov və Azərbaycan Respublikasının İstanbuldakı baş konsulu Nərminə Mustafayeva ulu öndər Heydər Əliyevin Azərbaycan –Türkiyə qardaşlığının və türk dünyasının birliyinin möhkəmlənməsində xidmətlərindən danışıblar, ulu öndərin nadir tarixi şəxsiyyət olaraq xalqlarımızın qürur mənbəyinə çevrildiyini vurğulayıblar.

Sonra "Qalatasaray" əfsanələri ilə Azərbaycan idman jurnalistlərinindən ibarət milli komandanın oyununa start verilib. Komandalar meydana üzərinə ulu öndərin hər iki ölkədə dillər əzbəri olmuş "Bir millət, iki dövlət" yazılmış bannerlə çıxıb. Qardaşlıq görüşü 3:3 hesabı ilə sona çatıb. Komandamızın vurduğu qolların müəllifləri "Qarabağ" futbol klubunun mətbuat katibi Gündüz Abbaszadə və "Sportal.az" saytının rəhbəri Emin Abbasov olublar. "Qalatasaray" əfsanələrinin heyətində isə İlyas Kahmaran 2, Evren Turan 1 qolla fərqləniblər.

Oyundan sonra AİJA-nın nümayəndə heyəti Bosfor sahilində salınmış Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət ediblər.

***"Xalq qəzeti"***

# Nizamini Azərbaycandan ayırmaq onun xalqına qarşı mübarizə üsuludur

**Tarixdən bəllidir ki, dünya mədəniyyətinin qiymətli inciləri sırasında yer almış İslam aləminin mənəvi irsinin yaradılmasında türkdilli topluların, eləcə də Azərbaycan xalqının rolu önəmli, payı böyükdür. Təkcə Gəncəli dahi Nizaminin adını çəkmək, əsərlərini xatırlamaq kifayətdir.**



Lakin İranının hakim fars şovinizmi bu gerçəyi – XII əsr Şərq intibahının zirvəsi sayılan Nizaminin türk olmasını heç cür həzm edə bilmir. O zaman İslam Şərqində poeziya dili fars dili sayıldığından, bu coğrafiyanın başqa xalqların şairləri kimi, Nizaminin də bu dildə yazması onun fars olmasını sübut etmək üçün əsas və yetərli deyil. Bu mövzuda müsahibimiz AMEA Şərqşünaslıq İnstitutu İran şöbəsinin müdiri, professor Vidadi Mustafayevdir.

**– İran ideoloqları son vaxtlar Nizami Gəncəvinin fars şairi olduğunu sübuta yetirmək üçün niyə bu qədər canfəşanlıq edirlər?**

– Məqsəd Azərbaycan xalqını böyük bir dahidən məhrum etməklə gözdən salmaq, farsların mütləq üstünlüyünü sübut etmək, bununla da Güney azərbaycanlılarını bir daha aşağılamaq, müstəqil Azərbaycan dövlətinə isə meydan oxumaqdır. Bircə onu demək kifayətdir ki, farslar heç vaxt Nizamini sevməmiş, Firdovsini ondan qat-qat üstün tutmuşlar. İndi isə birdən-birə Nizamiyə saxta bir məhəbbət göstərməyə başlamışlar. Builki Nizami gününü İranda geniş şəkildə keçirmək üçün müvafiq qurum və təşkilatların iştirakı ilə geniş tədbirlər proqramı nəzərdə tutulsa da, biz farsların Nizamiyə azərbaycanlılar qədər sevgi və ehtiramının şahidi ola bilmədik.

Böyük Nizami Gəncəvini ehtiramla yad etmək, onun misilsiz bədii, mənəvi irsini dəyərləndirmək, xatirəsini əziz tutmaq nəinki hər bir azərbaycanlının, farsın, eləcə də hər bir mədəni insanın borcudur və ölkə miqyasında keçirilən hər bir belə tədbir yüksək qiymətləndirilməli və təqdir edilməlidir. Amma İran bu tədbirləri Nizami Gəncəvinin layiq olduğu ən yüksək dəyəri ona vermək-də göstərdiyi səhlənkarlığı unutdurmaq üçün deyil, həmişə olduğu kimi, ideoloji mübarizə vasitəsi kimi həyata keçirməyi nəzərdə tutmuşdu.

Jurnalistlər qarşısında çıxış edən Nizami gününün qərargah rəisi və katibi qeyd ediblər ki, bu böyük şairi İranda tanımırlar. Amma əsas məsələ Nizaminin İranda tanınmaması ilə bağlı deyil, onu türklükdən ayırmaq, adını mənimsəmək səylərindədir. Nizamini xaricdə də bir fars şairi kimi tanıyan yoxdur. İranın hazırkı hakimiyyətinin əsas vəzifələrindən biri Nizami iranlılara və xaricilərə təkcə fars dilində yazan şair deyil, həm də bir fars kimi tanıtmaqdan ibarətdir.

Beləliklə, İran bu tədbirləri ilə Nizaminin bir fars şairi olduğunu iranlılara və xaricilərə qəbul etdirmək uğrunda mübarizəyə start verib. Mətbuat konfransından hazırlanan hesabatda Nizamiyə və onun mənəvi irsinə hansı ölkənin sahib çıxmağa çalışdığı qeyd edilməsə də, hansı ölkənin nəzərdə tutulduğu aydındır. İdeoloji mübarizənin artıq başlandığını göstərən detallardan biri hesabatda, bir dəfə də olsa, Nizami Gəncəvi ifadəsinin işlənməməsidir. Böyük şairin adı yalnız Nizami kimi qeyd edilir.

İranda Nizamiyə belə geniş diqqətin məhz bu il başlanmasının səbəbini araşdıranlar, bunun Azərbaycan tarixinin ən parlaq səhifəsinin yazılmasından sonra baş verdiyini nəzərə almalıdırlar. İran hakimiyyəti Nizami Gəncəvini özünün məlum ideoloji mübarizəsində güclü bir vasitəyə çevirməyə çalışır.

Doğrudan da, İranda Nizami Gəncəviyə o qədər də diqqət ayrılmırdı. Keçən il Nizami günü münasibəti ilə yazılmış bir neçə yazıda qeyd edilirdi ki, Nizami Gəncəvi tədris proqramlarında, xüsusən magistratura səviyyəsində yer alsa da, düz-əməlli tədris olunmur və öyrənilmir, çünki Nizami insanların dini (şiə) və fars şovinistlərinin millətçilik şüurunu heç nə ilə zənginləşdirmir. Nizamiyə diqqətin ayrılmaması, qeyd edildiyi kimi, bir tərəfdən onun dini-ideoloji məqsədlərə xidmət etməməsindən qaynaqlanır. Hakimiyyətin dini qolunun ideoloqları belə hesab edir ki, Nizami Gəncəvinin əsərləri eşq və məhəbbət süjetləri əsasında qurulduğundan, real insani sevgini əks etdirdiyindən dindar adamın Allaha sevgisini azaldır, ona görə onu mədəni həyatdan kənar tutmaq lazımdır.

**– Şübhəsiz, Nizami Gəncəviyə İran İslam Respublikasında uzun illər diqqətin ayrılmaması, qeyd edildiyi kimi, onun əsərlərinin fars millətçiliyi ideologiyasına xidmət edə bilməməsi ilə bağlı idi.**

– Bəli, Nizami Firdovsidən fərqli olaraq fars millətçiliyinə tamamilə yad bir şairdir. Fars millətçiləri Nizamini ona görə sevmirlər ki, Nizaminin ən böyük, onun bütün fəlsəfi, elmi, siyasi, ictimai biliklərini, dünyagörüşünü, dəyərlər sistemi və ideallarını əks etdirən ən böyük əsəri farsların ən böyük imperiyası olmuş Əhəmənilər imperiyasını (e.ə.550-330-cü illər) nəinki məğlub etmiş, eləcə də tarix səhnəsindən silmiş Qərb Fatehi Makedoniyalı İsgəndərə həsr edilmişdir. Farslar XIX əsrə qədər, bəyənmədikləri Qərb alimləri müəyyən edənə qədər İranda belə bir imperiyanın olmasından xəbərsiz idilər. Bu, məhz İsgəndərin sayəsində baş vermişdi.

İsgəndərin farslar qarşısında ikinci ən böyük xidməti onların etnik dilinin də siyasi-ictimai, mədəni həyatdan bayıra atılması olmuşdur. İsgəndərin və daha sonra digər yunan-makedon sülaləsinin hakimiyyəti dövründə fars dili onun daşıyıcıları tərəfindən unudulmuşdu.

Fars tarixi və mədəniyyətini, dilini tarix səhnəsindən silən bir böyük fatehə ən böyük əsərini həsr edən Nizami Gəncəvi, təbii ki, şovinistlərin hiddətinə səbəb olmalı idi.

Odur ki, panfarsistlər Nizami Gəncəvinin fars dilində yazmasından çıxış etsələr də, onun ədəbi-bədii, fəlsəfi irsində hakim şovinist millətçi ideologiyaya xidmət edə biləcək heç nə tapa bilmirlər. Ona görə Nizami Gəncəviyə sahib çıxmaq məqsədinin arxasında Nizami Gəncəvinin vətəninə qarşı ideoloji mübarizə məqsədinin dayandığını demək olar. Qeyd edilən tədbirlər yeni mərhələyə daxil olmuş həmin mübarizənin mühüm tərkib hissəsini təşkil edir.

Bu məkrli məqsədin digər bir cəhəti İranda yenidən "iranşəhri nəzəriyyəsini" (Sasani dövrü hakimiyyət qaydalarının, yeni dinin siyasi hakimiyyətə və kilsənin hökmdara tabe olması ənənəsinin bərpa edilməsi nəzəriyyəsi) canlandırmaq və həmin nəzəriyyə tərəfdarlarını fəallaşdırmaqdır. İran hakimiyyəti öz əli ilə hakimiyyətin dini qolunun zəiflədilməsi istiqamətində yeni bir addım atmaqdadır.

Beləliklə, İran İslam Respublikasının birdən-birə Nizami Gəncəvinin kimliyi və irsinə belə geniş diqqət yetirməsinin əsas səbəbini, qeyd edildiyi kimi, İranın ölkəni bürümüş siyasi-iqtisadi böhran şəraitində kütləvi iğtişaşlara qarşı ideoloji mübarizəsində axtarmaq lazımdır. Daha doğrusu, həmin tədbirlər ideoloji mübarizənin mühüm tərkib hissəsini təşkil edir. Tədbirlərin daxili hədəfini məlum etnik-siyasi və etnik-mədəni birlik və onun az-çox mədəni fəalları və ən nəhayət, sekulyar qüvvələrin radikal dinçiləri təşkil edir. Bu səbəblər içərisində birinci yerdə müəyyən məqsədə xidmət edən və məlum xatrici subyektə qarşı yeridilən ideoloji mübarizə hədəfləri durur.

*Hazırladı:*
*Tahir AYDINOĞLU, "Xalq qəzeti"*

# Millət vəkili iqtisadi siyasəti tənqid edib



**İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının üzvü Mahmud Əhmədi Biğeş hakimiyyətin iqtisadi siyasətini tənqid edərək yüksək rütbəli məmurları vətəndaşları aldatmaqda ittiham edib. O, bu barədə özünün "Twitter" hesabında paylaşım edib.**

Millət vəkili İranın Proqram və Büdcə Təşkilatının rəhbəri Məsud Mirkazimin inflyasiyanı nəzarətə ala biləcəkləri ilə bağlı çıxışını əsassız iddia adlandırıb: "Müəllimlərin bir aylıq əmək haqlarını ödəməyə gücü çatmayanlar böyük iddialar edirlər".

Qeyd edək ki, son vaxtlar müəllimlər və təhsil işçiləri əmək haqlarının ödənilmədiyi üçün İranın onlarca şəhərində etiraz aksiyaları keçiriblər.

*Hüseyn RƏHİMZADƏ*

# Qıtlıq, bahalıq davam edir

**Son vaxtlar İran mediası ölkənin bir çox əyalətlərində bəzi ərzaq malları kimi, toyuq qıtlığından da söz açaraq satış qiymətinin kiloqramını camaata elan edib: 80–85 min tümən. Rəsmi qiymət belədir, amma əhali zarafatla bildirir ki, tapsan, o qiymətə alarsan.**



"Didban" İran saytının xəbərinə görə, bazarda toyuq ətinin tədarükü çox məhdudur və dükançılar təsdiq olunmuş qiymətə toyuq alıb sata bilmədiklərinə görə bu işə girişməkdən çəkinirlər. Tehran Quşçuluq və Balıq Satıcıları Birliyinin rəisi Mehdi Yusufxani toyuq ətinin bahalaşması və dükanlarda tapılmamasına cavab olaraq "Didban"a deyib:

– Toyuğun kilosu 63 min tüməndir və ondan yuxarı satışlar qiymət pozuntusudur. Toyuqçuların təsdiq edilmiş 44 min tümən diri toyuğun qiymətinə əməl edə bilmirlər. Bu qiymət faktiki yüksək olduğundan həmkarlar ittifaqları cərimə olunmamaq üçün təsdiq edilmiş qiymətə riayət edərək fermerlərdən baha qiymətə toyuq almırlar.

"Eqtesad" onlayn saytı da ölkənin bir çox əyalətlərində toyuq tədarükü çatışmazlığından xəbər verib və bu məhsulun kilosunun 85 min tümənə çatdığını yazır.

İranın Ət Quşçuluq Birliyinin baş məsləhətçisi Məhəmməd Əli Kamali Sərvestani toyuq tədarükünün olmamasını ötən ilin sonunda broyler toyuq bölmələrində istehsalının azalması ilə əlaqələndirib. Bu azalmanın səbəbi barədə Sarostani bildirib ki, 2022-ci ilin ikinci 6 ayında fermerlər hər kiloqram toyuq istehsalında 8 min tüməndən 15 min tümənə qədər itki veriblər.

İqtisadi fəalın sözlərinə görə, ilin ikinci 6 ayında quşçuların itkisinə səbəb istehsal materiallarının qiymətinin artması ilə yanaşı, istehlak bazarının aşağı olması və istehsal xərclərinin alış qiymətinə uyğun gəlməməsi səbəb olub.

*R. GƏNCƏLİ*

# Evlərin kirayə haqqı artır

**İranın "Donyaye Eqtesad" qəzeti ölkənin kirayə bazarındakı son 3 ayın vəziyyətini təhlil edib. Bu durum heç də ürəkaçan deyil. Yəni, ölkənin indiki vəziyyətinə uyğundur.**



Qəzet gileylənir ki, hökumət artıq adekvat sosial kapitala malik deyil və xaotik mənzil bazarına nəzarət etmək imkanını itirib. Doğrudur, onun sosial kapitala malik olduğu göstərilir, mənzil bazarındakı xaotik vəziyyətdən də söhbət açılır. Amma nə etməli sualına cavab verilmir.

Məlumatda, sadəcə olaraq, vətəndaşların maddi durumunun pisləşdiyi üçün yeni tikilən mənzillər almadıqları və kirayə evlərdə qalmağa məcbur olduqları göstərilir. "Cam Cəm" qəzeti də dövlətin böhranlı mənzil bazarında hökm sürən inflyasiyaya nəzarət imkanını itirdiyini, bu səbəbdən kirayə haqlarının fantastik səviyyədə artdığını yazıb.

*T.TURAN*

# Cəllad! Sənin qalaq-qalaq yandırdığın kitablar...

**İran İslam İnqilabından sonrakı illərdə 1982-ci il fevralın 24-də "Azərbaycan müəllimi" qəzetində "Cənubdan səslər" ümumi başlığı altında Xalq şairi Balaş Azəroğlunun "Yandırılan kitablar" adlı məqaləsi dərc olunmuşdu. Güneydə 21 Azər hərəkatının fəallarından olmuş müəllif Milli hökumətin süqutundan sonra Güneydə Azərbaycan dilindəki kitabların məhv edilməsindən yanğı və hiddət ilə söhbət açmışdı. Həmin yazını tarixi aktuallığına görə oxucularımıza təqdim edirik.**



**YANDIRILAN KİTABLAR**

*Cəllad! Sənin qalaq-qalaq*
*yandırdığın kitablar,*
*Min kamalın şöhrətidir,*
*iki ürəyin arzusu...*
*Biz köçürük bu dünyadan,*
*onlar qalır yadigar,*
*Hər vərəqə nəqş olunmuş*
*neçə insan duyğusu,*
*Min kamalın şöhrətidir,*
*iki ürəyin arzusu...*

*Səməd VURĞUN*

Bu günlərdə əlimizə Cənubi Azərbaycanda yenidən çap olunmuş beş "ana dili" kitabı gəlib çatdı. Birinci sinifdən beşinci sinfə qədər ibtidai məktəb şagirdləri üçün yazılmış bu dərsliklər 1945-ci ildə Azərbaycanın milli maarifi tərəfindən nəşr edilmişdir.



Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı qələbə çaldıqdan sonra yeni yaranmış Azərbaycan milli hökumətinin həyata keçirdiyi demokratik islahatlardan biri də Azərbaycan dili elan edilməsi idi. "Dil haqqında Azərbaycan milli hökumətinin qərarı"nın 10-cu maddəsində deyilirdi: "Azərbaycan milli hökuməti mədrəsələrin milli dilə keçməsinin bütün müəllim və müəllimələrə bir milli vəzifə kimi tapşırır".

Milli hökumətin yuxarıda göstərilən qərarına əsasən çap olunmuş bu kitabları 35 ildən sonra Cənubun görkəmli ədiblərindən Məmmədəli Fərzanə Tehranda yenidən nəşr etmiş və bu barədə hər kitabın cildinin axırıncı səhifəsində belə bir qeyd vermişdir: "Bir çox illər bundan əvvəl ana dilimizi öyrənmək üçün Azərbaycan milli maarifi tərəfindən dərs kitabları sırasında nəşr edilmiş bu kitab dilimizi xalqa və həmidan artıq Azərbaycan uşaqlarına dərs vermək uğrunda atılmış böyük, şərəfli addımdır. İndilikdə dilimizi öyrənmək üçün bundan daha əlverişli və daha kamil dərs kitabları yazmaq lazım gəldiyi halda, bu kitabı o böyük, şərəfli addımın bir yadigarı kimi, xalqımızın neçə illər bundan əvvəl qurduğu milli maarifin yadigarı kimi nəşr edirik..."

Bir zaman, yəni 1945-1946-cı tədris ilində Cənubi Azərbaycanın bütün şəhər və kəndlərində şagirdlər həmin bu ana dili kitablarından dərs oxudular. Ancaq bu səadət onlara bircə il nəsib oldu. Bir ildən sonra Amerika silahı ilə silahlanmış mənfur Məhəmməd Rza şahın cəlladları Cənubi Azərbaycana hücum etdilər, xalqın yaratdığı xoşbəxt həyat, əldə etdiyi azadlıq qan dəryasında boğuldu. Elm, mədəniyyət naminə nə vardısa hamısı məhv edildi. Darülfünun, milli teatrın, milli muzeyin, filarmoniyanın, neçə-neçə mədəniyyət ocaqlarının qapısına qıfıl vuruldu, qabağında əli silahlı sərbazlar keşik çəkdilər ki, heç kəs ora yaxın düşə bilməsin.

Mən indi qarşımdakı bu ana dili kitablarını vərəqlərkən şah məmurları tərəfindən onların tonqallara atılıb yandırıldığı yadıma düşür.

1946-cı il dekabrın axırları idi. (O zaman mən Təbrizdə idim). Şəhərə xəbər yayıldı ki, valinin göstərişilə bütün Təbriz əhli kitabların yandırılması mərasiminə dəvət olunur. Dövlət məmurları, xəfiyyə məktəblərə, dükanlara, hətta evlərə soxulub milli hökumət vaxtı çap olunmuş dövri mətbuatı və kitabları toplayıb şəhərin neçə meydanında tonqal düzəltmişdilər.

Təbrizin adi qış günlərindən biri idi, qarlı-sazaqlı cümə günü. Adam boyundan uca olan tonqalların ətrafında səhərdən əli silahlı keşikçilər gəzişirdi ki, tonqala dəyib toxunan olmasın. Kitabların yandırılması mərasimi isə günortadan sonra başlandı. Azərbaycan milli hökumətinin yadigarlarından olan ana dilində yazılmış kitabların yandırılmasına tamaşa etmək üçün yüksək rütbəli dövlət və qoşun nümayəndələri də gəlmişdilər. Tonqalların yanında onlardan başqa çoxlu sərbaz, polis və jandarmalar var idi. Kitabların yandırılmasında daha çox adam iştirak etsin deyə valinin "qabaqgörənlik" edib mərasimi cümə gününə təyin etməsi əks nəticə vermişdi. Təbriz əhli cümə olduğunu bəhanə edərək evdən çölə çıxmamışdı. Dükanlar bağlı, küçə və xiyabanlar bom-boş idi. Bəzi şahpərəst və ikiüzlülər nəzərə alınmasa, o gün tonqalların ətrafında rəsmi dövlət qulluqçularından başqa heç kəs olmadı. Bunu hiss edən məmurlar özlərini o yerdə qoymadan əmri yerinə yetirdilər, tonqallara od vurdular. Bir xalqın təfəkkür dünyasının yadigarları odlandı. Alovların dilləri kitabları varaqladıqca neçə-neçə dahinin, mütəfəkkirin və sənət bahadırının şəkli sanki tonqalın arasından boylanıb bu cəlladlara qəzəb və nifrətlə baxırdı. Arabir güclənən nəsim yanıb qaralmış vərəqləri tonqalın üzərinə qaldırır, yaxındakı ağacların çılpaq budaqlarına yapışdırıb qəribə bir mənzərə yaradırdı. Uzaqdan baxana elə gəlirdi ki, ətrafdakı budaqlardan kiçik, qara bayraqlar asılmışdır.

Tonqallar alışan kimi vali Tehrana teleqrafla milli hökumətin yadigarlarının məhv edildiyini xəbər vermişdir. Fəqət vali bilmirdi ki, İran diktatorlarının Cənubi Azərbaycan xalqının dilini, mədəniyyətini məhv etmək üçün göstərdiyi saysız cəhdləri boşa çıxdığı kimi, kitabları yandırıb məhv etmək təşəbbüsü də vəhşilikdən başqa bir şey deyildir. Vali bilmirdi ki, sonsuz təzyiqlərə, məhrumiyyətlərə məruz qalmış, ancaq heç zaman baş əyməmiş, öz mənliyini, milli qürurunu ayaqlar altına salmamış, milli varlığını mərdliklə, şərəflə qoruyub saxlamış bir xalqı asanlıqla susdurmaq, diz çökdürmək mümkün deyildir. Onun mədəniyyətini, ədəbiyyatını tonqallarda yandırıb məhv etmək olmaz.

İndi 35 ildən sonra ilk imkan yaranan kimi ana dili dərsliklərinin, Azərbaycan dilində yazılmış onlarca başqa kitab, jurnal, qəzet və s... meydana çıxması bir daha sübut etdi ki, bu xalqın səbatı və iradəsi necə də yenilməzdir. Əslində yandırılan kitabların neçə-neçə nüsxəsi Vətənin fədakar övladları tərəfindən yad nəzərlərdən ehtiyatla qorunub saxlandı. Kimi onları həyətdəki qızıl gül kollarının dibində basdırdı, kimi gündəlik paltarının arasında saxladı, kimi anbarda odun laylarında, kimi kömür çəlləklərində, kimi zirzəmidə, kimi də divar hörgüsündə gizlətdi. Düşmənin əlinə düşməyə qoymadı. Beləliklə, obrazlı şəkildə demiş olsaq "Ana dili" ürəklərdə, şüurlarda yaşadı.

İndi o kitablar yenidən günəş işığına çıxmışdır. O zaman bu günləri aydın görən və belə bir imkanın yaranacağına qəlbən inanan fədakar insanlar, bunu da qəti bilirlər ki, hörmətli M.Fərzanənin yenidən çap etdiyi dərslikləri bu yaxın gələcəkdə azərbaycanlı balalar öz bəzəkli çantalarına qoyub məktəblərə gedəcək, ana dilindən təhsil alacaqlar.

*Balaş AZƏROĞLU,*
*Xalq şairi*

# Ölkəmizdə ÜDM-in bu il 2,5 faiz, gələn il isə 2,7 faiz artacağı gözlənilir

## *Son 20 ildə isə bu rəqəm 22 dəfə yüksəlib*

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "Regional iqtisadi perspektivlər" hesabatında son iki il ərzində respublikamızda güclü iqtisadi artıma nail olunduğu bildirilir və 2022-ci ildə istehsalın həcminin 4,6 faiz artdığı, qeyri-neft-qaz sektorunda isə artımın 9 faizə çatdığı vurğulanır. Hesabatda, həmçinin ÜDM-in 2023-cü ildə 2,5 faiz, 2024-cü ildə isə 2,7 faiz artacağı proqnozlaşdırılır.**

Xatırladaq ki, bütün bu proqnoz göstəriciləri ölkə iqtisadiyyatının inkişaf dinamikasını ifadə edir. Keçən il ərzində ÜDM-in 2021-ci ilə nisbətən 4,6 faiz artaraq 133 milyard 825,8 milyon manat, qeyri-neft-qaz sektorunda isə 9,1 faiz artaraq 69 milyard 826 milyon manat təşkil etməsi də bunun bariz ifadəsidir.




Yeri gəlmişkən, Dünya Bankının cari il üçün "Qlobal iqtisadi perspektivlər" adlı hesabatında ölkəmiz üzrə verilən proqnozlarda real ÜDM-in artım tempi müsbət olaraq saxlanılır. Cari il ərzində isə Azərbaycan iqtisadiyyatında artımın dünya ölkələri ilə müqayisədə 1,1 faiz, ECA regionu ilə müqayisədə isə 2,7 faiz daha yüksək olacağı proqnozlaşdırılır. Bu inkişaf tempi artıq Azərbaycanın orta yüksəkgəlirli statuslu ölkələr sırasında olacağını və milli iqtisadi strategiyasını öz gücü və imkanları hesabına reallaşdırılacağını deməyə əsas verir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkənin ÜDM-i 2023-cü ilin yanvar-aprel aylarında 2022-ci ilin analoji dövrü ilə müqayisədə 0,1 faiz artaraq 39,986 milyard manata çatıb. Komitənin məlumatına görə, bu ilin hesabat dövründə 2022-ci ilin analoji dövrü ilə müqayisədə qeyri-neft sektorunda əlavə dəyər 3,1 faiz, neft-qaz sektorunda isə 2,9 faiz artıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə xalqımıza müraciətində ötən 20 ildə ölkənin sürətli tərəqqisindən danışarkən bu müddətdə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci dövlətin olmadığını, iqtisadiyyatın 3 dəfədən çox artdığını xüsusi vurğulayıb. Ölkə rəhbəri daha sonra valyuta ehtiyatlarının 65 milyard dollara çatdığını, bu rəqəmin isə 2003-cü illə müqayisədə 41 dəfə çox olduğunu və nəhayət, həmin göstəricinin xarici borcu təxminən 10 dəfə üstələdiyini söyləyib.

Bu məqamda qeyd edək ki, hazırda respublikamızın xarici dövlət borcu dünyada ən aşağı səviyyədədir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır.

**Beləliklə:**

**– son 20 il ərzində ölkə üzrə ÜDM-in nominal həcmi 22 dəfə artaraq 133,8 milyard manata çatıb;**

**– həmin dövrdə əhalinin gəlirləri 13,7 dəfə artıb. Bu müddətdə respublika iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılıb;**

**– Azərbaycan "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb, yoxsulluq 49 faizdən 5 faizə enib;**

**– ölkə iqtisadiyyatı hazırda alıcılıq qabiliyyətinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir;**

**– iqtisadiyyata qoyulan investisiyalar dörd dəfə artıb;**

**– başlanğıcda 270 milyon dollara malik olan Dövlət Neft Fondunun hesabı indi 50 milyarda dollara yüksəlib. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdə qərarlaşıb.**

Azərbaycan iqtisadiyyatını şərtləndirən amillər sırasında neft-qaz sektorunda əldə edilən uğurlar mühüm önəm daşıyır. Qeyd edək ki, hazırda respublikamız TANAP və TAP vasitəsilə Avropaya qaz ixrac edir, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu kimi beynəlxalq iqtisadi layihələrin müəllifidir və bu gerçəkləşən təşəbbüslər sayəsində büdcəmizə valyuta axınını təmin edir.

Gələcəkdə Zəngəzur dəhlizinin işə salınması isə Naxçıvan ilə Azərbaycanın digər regionlarının, eləcə də Türkiyə ilə Orta Asiya respublikalarının nəqliyyat baxımından birləşməsini təmin etməklə yanaşı, ölkəmizə həm iqtisadi, həm də siyasi dividend cəhətdən böyük uğur qazandıracaq. Milyardlarla dollar həcmində ticarət dövriyyəsi məhz bu dəhlizlə reallaşacaq ki, bu da ölkəmizə əlavə valyuta axınını gerçəkləşdirəcək.

Sonda onu da qeyd edək ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq layihələri həyata keçirilir. Düşməndən təmizlənən bu ərazilərdə heç bir beynəlxalq kredit təşkilatının yardımı olmadan erməni faşizmi tərəfindən vandalizmə məruz qalan yaşayış məntəqələri öz gücümüzlə bərpa edilir, alternativ enerji istehsalı üçün stansiyalar yaradılır, yollar salınır, infrastruktur layihələri həyata keçirilir. Ümumilikdə, Azərbaycan bugünədək Qarabağın bərpasına 9 milyard manata yaxın vəsait sərf edib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Son 20 il ərzində ölkəmiz sürətli inkişaf yolu keçib, sosial-iqtisadi sahələrdə müsbət göstəricilər əldə edilib. Lakin bununla kifayətlənilməməli, yüksəkgəlirli dövlətlər qrupuna daxil olmaq üçün uzunmüddətli dövrdə iqtisadiyyat sürətli və davamlı artmalıdır. Dünyada 13 ölkənin iqtisadiyyatı 25 il ərzində hər il orta hesabla 7 faizi üstələyən artım nümayiş etdirib. Bu dövlətlərdə iqtisadiyyatlar sürətli, dayanıqlı və inklüziv şəkildə artaraq yüksəkgəlirli ölkələrlə məsafənin azalmasına nail olunub. Hazırda milli iqtisadiyyatımız yüksəkgəlirli ölkələr sırasına daxil olmağı hədəfləyir. Bunun üçün dayanıqlıq və inklüzivlik keyfiyyətlərini özündə cəmləyən yeni iqtisadi artım olmalıdır. Bu isə hər bir vətəndaşımızın gəlirlərinin davamlı artması üçün zəmin yarada bilər.

Azərbaycanda hazırda iqtisadi artımın dayanıqlı olması üçün kənd və şəhərlər arasında inkişaf balansı gözlənilir. Kəndlərdə də şəhərlərdəki kimi, müasir sosial-iqtisadi infrastrukturun vacib elementləri olan təhsil ocaqları, tibb müəssisələri, mədəniyyət evləri, mühüm kommunal və inkişaf xidmətləri rəqəmsal texnologiyalar əsasında yaradılır. Bütün bunlar şəhər və kənd yerləri arasında həyat standartlarında fərqi əhəmiyyətli dərəcədə azaldır. Kəndlərin planlanması və əhalinin məskunlaşması zamanı regionun iqtisadi dəyər zəncirində mövcud və potensial rolu nəzərə alınır.

Qloballaşma proseslərinin sürətlənməsi və maliyyə böhranlarının başvermə tezliyinin artması makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasına diqqəti artırır. Makroiqtisadi sabitlik və dayanıqlıq uzunmüddətli dövrdə davamlı iqtisadi artımın başlıca şərtləridir. Aşağı və sabit inflyasiya, dayanıqlı məzənnə, habelə maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi daxili və xarici investisiya fəallığını şərtləndirir.

Qlobal birbaşa investisiyaların cəlbi üzrə rəqabət kəskinləşir. Bu investisiyalar sağlam və şəffaf biznes mühitinin mövcudluğunu, makroiqtisadi və maliyyə sabitliyi tələb edir. Qeyd olunan şərtlər mövcud olmadığı halda, ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınına maneə yarana bilər. Təcrübə göstərir ki, sürətli inkişafın əsas drayveri olan birbaşa xarici investisiyalar ölkədə dayanıqlı yeni iş yerləri yaratmaqla yanaşı, yüksəkkeyfiyyətli insan kapitalı formalaşdıra bilər.

# Təbii qaz hasilatı 2,5 faiz çoxalıb

**Cari ilin yanvar-aprel aylarında əmtəə qazının hasilatı 2022-ci ilin analoji dövrü ilə müqayisədə 1,9 faiz çoxalıb.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda təbii qaz hasilatı 16,142 milyard kubmetr, o cümlədən əmtəə qazının hasilatı 12,215 milyard kubmetr təşkil edib. Təbii qaz hasilatı isə illik hesablamada 2,5 faiz artıb.

Komitənin məlumatına əsasən, 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda kondensatla birlikdə 10,228 milyon ton xam neft hasil olunub ki, bunun təqribən 10,202 milyon tonu əmtəə neftinin payına düşüb. Beləliklə, Azərbaycan kondensatla birlikdə xam neft hasilatını illik hesablamada 8 faiz azaldıb. Əmtəə neftinin hasilatı isə il ərzində 8 faiz azalıb.

Qeyd edək ki, Azərbaycan təbii qazın 8,4 milyard kubmetrini xarici bazarlara ixrac edib. Yanvar-aprel aylarında Azərbaycan Avropaya (3,9 milyard kubmetr), Türkiyəyə (3,4 milyard kubmetr) və Gürcüstana (1,1 milyard kubmetr) təbii qaz ötürüb. Hesabat dövründə TANAP vasitəsilə Türkiyəyə 1,9 milyard kubmetr təbii qaz ixrac olunub.

***"Xalq qəzeti"***

# Kənd təsərrüfatı məhsulları 3,5 faiz bollaşıb



**Kənd təsərrüfatında cari ilin yanvar-aprel aylarında diri çəkidə 187,3 min ton ət, 697,6 min ton süd, 726,5 milyon ədəd yumurta, 2,1 min ton yun, 128,3 min ton tərəvəz və 50,3 min ton kartof istehsal olunub.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin yanvar-aprel ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,5 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,5 faiz, bitkiçilik məhsulları istehsalı isə 3,2 faiz artıb.

***"Xalq qəzeti"***

# Minik avtomobillərinin istehsalı genişlənəcək

**Son illər ölkəmizdə minik avtomobillərinin istehsalında artım müşahidə olunur. Bu sahədə həyata keçirilən növbəti stimullaşdırıcı tədbir isə gələcəkdə yerli istehsalın bir qədər də genişləndirilməsinə səbəb olacaq.**




Belə ki, bu ildən Azərbaycanda istehsal olunan minik avtomobillərinin satışı əlavə dəyər vergisindən (ƏDV) azad olunacaq. Xatırladaq ki, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 18-də keçirilən iclasında müzakirə olunan və parlamentin plenar iclasına tövsiyə edilən Vergi Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, ölkə ərazisində istehsal olunan minik avtomobillərinin satışı 2023-cü il mayın 1-dən 10 il müddətinə ƏDV-dən azad olunacaq. Dəyişiklik ölkə ərazisində minik avtomobillərinin istehsalının dəstəklənməsi məqsədi daşıyır.

***"Xalq qəzeti"***

# Azərbaycan Özbəkistanla energetika sektorunda da əməkdaşlıq edəcək



**Son illər Azərbaycanın dost və qardaş ölkə Özbəkistanla münasibətləri yüksələn xətlə inkişaf edir. Hazırda ölkələrimiz müxtəlif beynəlxalq qurumlarda, o cümlədən Türk Dövlətləri Təşkilatında sıx və məhsuldar əməkdaşlıq edirlər. Bununla yanaşı, son illər dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafına, strateji münasibətlərin daha da dərinləşməsinə təkan verir.**

Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 64 faiz artaraq 111 milyon 903 min dollardan 183 milyon 307 min dolladək yüksəlib. Eyni zamanda, 2020-ci illə müqayisədə ticarət dövriyyəmiz 2 dəfədən çox artıb. Yaxın 5 il ərzində isə qarşılıqlı ticarətin həcminin 1 milyard dollara çatdırılması nəzərdə tutulur. Yeri gəlmişkən, hazırda Özbəkistandan Azərbaycana əsasən toxuculuq, maşınqayırma və ərzaq məhsulları ixrac edilir. Azərbaycandan isə Özbəkistana xam neft, neft məhsulları, alüminum və s. göndərilir.

Hazırda Azərbaycanla Özbəkistan iqtisadiyyatın müxtəlif sahələrində – kənd təsərrüfatı, nəqliyyat, logistika ilə yanaşı, birgə sərmayə qoyuluşları istiqamətində də fəal əməkdaşlıq edirlər. Yaxın vaxtlarda isə ölkələrimiz arasında energetika sahəsində birgə layihələrin icrası planlaşdırılır. Xatırladaq ki, bu sahədə ilkin razılaşma 2022-ci ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri zamanı əldə olunub. Ötən müddətdə səfər çərçivəsində imzalanmış sənədlərin icrasını sürətləndirmək məqsədilə hökumətlərarası komissiya və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşlər intensiv xarakter alıb. Həmin görüşlərin nəticəsi olaraq dövlət başçıları tərəfindən qəbul olunan qərarların və verilən tapşırıqların icrası istiqamətində mühüm addımlar atılıb. Ötən ilin iyul ayında SOCAR ilə "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əməkdaşlığın genişləndirilməsinə dair imzalanmış "Yol xəritəsi" bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Yol xəritəsinə uyğun olaraq hazırda Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Özbəkneftqaz" şirkəti arasında "SOCAR Trading" birgə müəssisəsinin yaradılması məsələsi nəzərdən keçirilir. Bu barədə Daşkənddə keçirilən "Özbəkistanın Neft və Qazı–OGU 2023" 25-ci beynəlxalq sərgi zamanı SOCAR prezidenti Rövşən Nəcəfin başçılıq etdiyi nümayəndə heyətinin "Özbəkneftqaz" şirkəti arasında keçirilən görüşündə bildirilib. Görüş zamanı "Upstream" və "Downstream" istiqamətlərində əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin "Buxara Neft Emalı Zavodunun modernləşdirilməsi" layihəsində iştiraka, eləcə də Özbəkistanın və Azərbaycanın neft-qaz yataqlarında birgə işlənməyə xüsusi maraq ifadə olunub. Eyni zamanda, SOCAR rəhbərliyi Özbəkistan ərazisində operator kimi xidmət müqavilələrində də iştirak etməyə hazır olduğunu bəyan edib.

Özbəkistan tərəfi SOCAR nümayəndələrinə şirkətlər arasında potensial əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarına görə təşəkkür edib. Həmçinin bərpa olunan enerji sahələrinin ekoloji standartlara uyğun inkişafının vacibliyi vurğulanıb, bu sahənin inkişafı istiqamətində Azərbaycan şirkətinə sıx əməkdaşlıq təklif olunub. Görüşün nəticəsi olaraq bütün sahələrdə əməkdaşlıq perspektivlərinin daha da öyrənilməsi imkanları və bütün birgə layihələrin iş səviyyəsində inkişafının davam etdirilməsi barədə razılıqlar əldə olunub.

Yeri gəlmişkən, hər iki ölkənin energetika sektorunda əməkdaşlığın genişləndirilməsi üçün potensialı yüksəkdir. Daxili resursları hesabına özünün enerji təhlükəsizliyini tam təmin edən Azərbaycan hazırda Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Dost ölkə və strateji tərəfdaşımız olan Özbəkistanın da bu baxımdan imkanları genişdir. Belə ki, son illər neft-qaz sektoru Özbəkistan iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilib. Bu ölkədə neftçıxarmanın əsası 1937-ci ildə "Əndican" yatağının istismara verilməsi ilə qoyulub. Məlumat üçün bildirirk ki, Özbəkistanın neftlə zəngin "Əndican", "Boston" və "İzbaskənd" yataqları Fərqanə vadisində yerləşir. Ötən illər ərzində bu ölkənin ərazisində onlarca neft və qaz yatağı aşkar olunub. Bu yataqların bəziləri uzun illər istismar edilsə də, yerli və xarici mütəxəssislərin iştirakı ilə kəşf olunmuş yeni yataqlar da az deyil.

2015-ci ildə Özbəkistanda 2,2 milyon ton neft çıxarılıb. 2016-cı ilin əvvəlinə ölkənin təsdiq olunmuş neft ehtiyatları 81 milyon ton təşkil etsə də, son illər açılmış yeni yataqlar hesabına bu rəqəmin artacağı istisna olunmur. Yeri gəlmişkən, OPEC-in neft hasilatı ilə bağlı tərtib etdiyi və 96 ölkənin yer aldığı siyahıda Özbəkistan 50-ci yerdə qərarlaşıb. Belə ki, 2019-cu ildə bu ölkədə gündəlik neft hasilatı 52,9 min barel təşkil edib. Ümumilikdə isə, Özbəkistanın neft yataqları, əsasən, Qaraqalpaq Muxtar Respublikasının, eləcə də Əndican, Buxara, Qaşqadərya, Nəmənqan, Surxandərya və Fərqanə vilayətlərinin ərazisində yerləşir. Ölkənin cənub-qərb regionlarındakı yataqlar zənginliyi ilə seçilsə də, digər rayonlarda neft-qaz ehtiyatları o qədər də çox deyil.

Bununla yanaşı, Özbəkistanda zəngin qaz yataqları da mövcuddur. BP şirkətinin dünya ölkələrinin təsdiq olunmuş qaz ehtiyatları ilə bağlı 2014-cü ildə açıqladığı siyahıda Özbəkistan 24-cü yerdə qərarlaşıb. Belə ki, bu ölkənin qaz ehtiyatları 1,1 trilyon kubmetr həcmində qiymətləndirilib. Hazırda ölkənin ən zəngin "mavi yanacaq" mənbəyi "Qazlı" yatağı sayılır. Yatağın qaz ehtiyatları 470 milyard kubmetr həcmində qiymətləndirilir. Ötən əsrin 60-cı illərinin əvvəllərindən istismar olunan yataqdan çıxarılan qaz Qazaxıstan, Qırğızıstan və Rusiyaya ixrac edilir. Bununla yanaşı, Özbəkistanda "Qandım" və "Təvəkkəl" kimi zəngin qaz yataqları da mövcuddur.

Göründüyü kimi, Azərbaycan və Özbəkistan iqtisadiyyatları inkişaf istiqamətlərinə görə oxşar cəhətlərə malikdir. Energetika sahəsində əməkdaşlıq isə gələcəkdə ölkələrimiz arasında iqtisadi münasibətlərin yeni müstəvidə davam etməsinə gətirib çıxaracaq. Eyni zamanda, "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" 2023-cü il fevralın 24-də Daşkənd şəhərində imzalanmış sazişin təsdiq edilməsi iqtisadiyyatın bir çox sahələrində, eləcə də investisiyaların təşviqi istiqmətində əməkdaşlığın genişləndirilməsinə səbəb olacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

Zəfər təqvimimiz

# Günnüt əməliyyatı – Qarabağ Zəfərinin Naxçıvan müjdəsi

**Azərbaycan Ordusunun qalibiyyətli Aprel döyüşlərindən 2 il sonra, Vətən müharibəsindəki tarixi Zəfərdən isə 2 il əvvəl qazandığı qələbədən – Günnüt əməliyyatından 5 il keçir. 2018-ci il may ayında baş vermiş bu tarixi hadisə bir tərəfdən Azərbaycan Ordusunun güc və qüdrətinin təsdiqi idisə, digər tərəfdən də respublika rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində yeritdiyi qətiyyətli siyasətin nümayişi idi.**

Böyük Zəfərin əldə edilməsinə qədər Prezident İlham Əliyev davamlı şəkildə bəyan edirdi ki, ərazi bütövlüyümüz kimsə ilə müzakirə obyekti ola bilməz, bu məsələdə Azərbaycan dövləti və xalqı heç zaman güzəştə getməyəcəkdir. Naxçıvan Muxtar Respublikası ilə Ermənistanın sərhədində yerləşmiş Günnüt kəndinin və ətraf ərazilərin Azərbaycan Ordusu tərəfindən yalnız bir nəfər şəhid verilməsi ilə azad edilməsi də xalqın dəstəyinə dayaqlanan bu güzəştsiz siyasətin tarixi nəticəsi idi.

Şərur rayonu və istərsə də muxtar respublika üçün strateji əhəmiyyət kəsb edən Günnüt kəndi hələ 1992-ci ildə Ermənistanın hərbi qüvvələri tərəfindən işğal olunmuşdu. Erməni işğalına məruz qaldıqdan sonra bu abad kəndin yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdıldı, qədim yaşayış yeri erməni vandalları tərəfindən xarabalığa çevrildi. Kəndin yaşayış evləri ilə birlikdə məktəbi, tibb məntəqəsi, kitabxanası, eləcə də qəbiristanlığı və məscidi viran hala salındı. Əhali rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur oldu.

Dağlıq Qarabağ bölgəsindən kənarda olan Günnüt kəndinin işğalı Ermənistan Respublikasının Azərbaycan qarşı təcavüz siyasətinin əyani nümayişi idi. Dağlıq Qarabağla bərabər, bütünlükdə Naxçıvanı da işğal etmək niyyətini erməni millətçi dairələri heç zaman gizlətmirdilər. Əslində, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin icrasına da 1990-cı il yanvar ayının 19-da Naxçıvana məxsus olan Kərki kəndinin işğalı ilə başlanmışdı. Lakin ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən sonra bu diyarı işğal edərək Ermənistana birləşdirmək üçün erməni millətçi dairələrin siyasəti həyata keçə bilmədi.

Erməni hərbi qüvvələrinin nəzarəti altında qalmış Günnüt kəndi və onun ətrafındakı strateji yüksəkliklərin azad edilməsi isə 2018-ci ilin may ayında yeniləşmiş Azərbaycan Ordusu tərəfindən həyata keçirildi.



Günnüt əməliyyatı Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordunun qüvvələri tərəfindən aparıldı. Bu struktur Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli fərmanı əsasında Muxtar Respublika ərazisində mövcud olan hərbi birliyin bazasında yaradılmışdı.

Naxçıvan Muxtar Respublikasında yeni bir əməliyyat-strateji ordu vahidinin yaradılması yalnız mövcud olmuş birliyin adının dəyişdirilməsi demək deyildi. Ümumqoşun Ordunun yaradılması hər şeydən əvvəl Naxçıvanın etibarlı müdafiəsinin təşkili zərurətindən irəli gəlirdi.

Nəzərdə tutulmuşdu ki, bu yeni strukturun yaradılması ilə Naxçıvan ərazisindəki hərbi qüvvələr müstəqil şəkildə muxtar respublikanın müdafiəsini təşkil etməyə qadir olan bir vahidə çevrilsin. Bunu Günnüt əməliyyatı ərəfəsində, 2018-ci il may ayının 16-da Naxçıvana səfər etmiş Azərbaycan Respublikasnın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də qeyd edirdi: “İlk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər”.

Ermənistan sərhəd xətti boyu yerləşən birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin yaradılması sahəsində əməli tədbirlər görülmüş, müdafiə sistemi təkmilləşdirilmiş, qoşunların döyüş qabiliyyəti yüksək səviyyəyə qaldırılmışdı. Ordunun döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsi, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi üçün birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimləri keçirilməkdə idi. Həmin təlimlərə Azərbaycan Ordusunun müxtəlif qoşun birləşmələri cəlb olunur və bu zaman ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilirdi.

Ali Baş Komandan İlham Əliyevin Naxçıvana səfərindən dərhal sonra Ermənistanın yeni müdafiə və xarici işlər nazirləri Naxçıvanla sərhəd bölgəsinə səfər etdilər. 2018-ci il may ayının 20-də ermənilər tərəfindən törədilən təxribat nəticəsində Əlahiddə Ümumqoşun Ordunun əsgəri Adil Tatarov şəhid oldu. Dünya ictimaiyyətinin diqqətinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından yayındırılması və gərginlik mərkəzinin Azərbaycan–Ermənistan dövlət sərhəd xəttinin Naxçıvan sahəsinə keçirilməsi cəhdinin qarşısının alınması üçün elə həmin gün Günnüt əməliyyatının keçirilməsinə qərar verildi.

Günnüt əməliyyatı 2018-ci il may ayının 27-nə qədər davam etdi və hərbi qüvvələrin qarşısına qoyulmuş tapşırıq tam şəkildə yerinə yetirildi. Nəticədə, Günnüt kəndi ilə birlikdə 11 min hektar ərazi Azərbaycan Ordusunun nəzarəti altına gətirildi. Günnüt kəndi ətrafında yerləşən 2065 metr hündürlüyü olan Xunut yüksəkliyi, 1869 metr hündürlüyü olan Mehridağ yüksəkliyi, 1683 metr hündürlüyü olan Qızılqaya yüksəkliyi Ümumqoşun Ordu bölmələrinin nəzarəti altına keçdi. Azad olunmuş ərazilərin 8 min hektarı əkinçilik üçün yararlı olan torpaqlar idi. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi isə Ermənistan ərazisindən keçən Yexeqnadzor–Gorus–Laçın–Xankəndi yolunun nəzarət altına alınmasına imkan verdi.

Günnüt kəndinin erməni işğalından azad edilməsi bölgədə strateji üstünlüyün qazanılmasından əlavə, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi və təsərrüfat həyatı üçün də böyük əhəmiyyət kəsb edirdi. Bu kəndin və onun ətrafında olan ərazilərin erməni nəzarətindən çıxarılması ilə Şərur və Sədərək rayonlarını bütünlüklə, Kəngərli rayonunu isə qismən su ilə təmin edən Arpaçay su dəryaçasının da təhlükəsizliyi təmin edildi. Çünki erməni millətçiləri bu su dəryaçasını da partlatmaqla Naxçıvan əhalisinin və torpaqlarının su ilə təmin edilməsini çətinləşdirmək istəyirdilər. Günnüt kəndinin azad edilməsi ilə Naxçıvanın təxminən 14 faiz elektrik enerjisini təmin edən Arpaçay-1 və Arpaçay-2 su elektrik stansiyalarının da təhlükəsizliyi təmin edilmiş oldu.

Günnüt döyüşünün keçirilməsindən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin döyüşün nəticələrini belə qiymətləndirirdi: “Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq”.

2021-ci il may ayının 10-da Naxçıvana növbəti səfəri zamanı isə İlham Əliyev Günnüt döyüşünün nəticələrinin dəyərini belə açıqlayırdı: “Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır”.



Doğrudan da, Əlahiddə Ümumqoşun Ordu qüvvələrinin əldə etdiyi nəticələr sevindirici idi. Həmin dövrdə Ermənistan silahlı qüvvələri baş qərargahının rəisi olmuş M.Akopyan etiraf edirdi ki, Günnüt əməliyyatının nəticələrinə görə Ermənistan tərəfi çox böyük ərazilərə nəzarəti itirməli olmuşdu. Bir sözlə, Günnüt əməliyyatı inkişafda olan Azərbaycan Ordusunun gücünün və qüdrətinin yeni bir ifadəsi oldu. Bu əməliyyatın gedişi, idarə edilməsi, komandir heyətinin səriştəsi və məharəti göstərdi ki, Azərbaycan Ordusu daha böyük zəfərlərin əldə edilməsinə qadirdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan 44 günlük Vətən müharibəsinin bütün dünyaya səs salan nəticələri də bunun təsdiqi oldu

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universitetinin professoru, tarix elmləri doktoru***

# Dağüzü kəndinin üzünü ağ edən oğul



**Vətənimizin hər tərəfində olduğu kimi, Yardımlı rayonunun ucqar Dağüzü kəndində də zaman-zaman igid, qəhrəman övladlar doğulub. Bu yaxınlarda qardaş Türkiyədə müalicəsini başa vurub, doğma yurduna geri dönən qazimiz Vahid İmanlı kimi.**

Vahid orta məktəbi bitirdikdən sonra 2016-2018-ci illərdə Goranboy rayonundakı “N” saylı hərbi hissədə xidmətdə olub. Ermənistan silahlı qüvvələrinin cəbhə boyu geniş miqyaslı təxribat törətmələrinə cavab olaraq 2020-ci il sentyabr ayının 27-də ordumuzun başladığı əks-hücum əməliyyatında Vahid İmanlı da iştirak edib və sərrast snayper kimi böyük qəhrəmanlıq göstərib. O, yaralı əsgər yoldaşını döyüş meydanından çıxararkən ayaq nahiyəsindən və kürəyinin onurğa sütunundan düşmənin snayper gülləsinə tuş gəlib, 6 saata yaxın yaralı vəziyyətdə neytral ərazidə qalıb. Türkiyədə 39 əməliyyat keçirib.

Qazimiz döyüş yolundan danışdıqca qürurlanır, müzəffər ordunun qalib əsgəri olduğu üçün fəxr edir. O, Füzuli rayonundakı “Qırx metrəlik post”, “Ferma”, “Quzğun” adlandırılan ərazilərin və bir çox yüksəkliklərin erməni silahlılarından təmizlənməsində şəxsən iştirak edib. Oktyabrın 26-da – Vətən müharibəsinin 30-cu günündə, gecə saatlarında Yuxarı Əbdürrəhmanlı uğrunda gedən qızğın döyüşlərin birində yaralı yoldaşını xilas edərkən ağır yaralanıb. Yaralı vəziyyətdə təxminən gecə saat ikiyə qədər neytral ərazidə qalıb. Kəşfiyyat bölüyünün əsgərləri onları səhərə yaxın həmin ərazidən çıxara biliblər...

Şərəfli qazi adını daşıyan Vahid döyüş yoldaşları ilə çəkdirdikləri fotoları göstərərək sözünə davam edir: “Bax, bu dörd-beş silah yoldaşımla qardaş kimiydik. Araz, Pərviz, Elməddin və Rəşadla hər zaman bir-birimizə dəstək olurduq, ürək-dirək verirdik. Həmin gecə Araz ilə Rəşad da yaralandılar. Biri minadan, biri də elə mənim kimi snayper gülləsindən. Bizi neytral ərazidən çıxaranların arasında dostlarımdan Elməddin və Pərviz də vardı. İlk yaralarımıza müdaxilə elə həmin gecə Füzulidə oldu. Sonra bizi Bakı hospitalına göndərdilər. Onurğa sütunumdakı gülləni çıxardılar. İlk əməliyyatım o oldu. 2 günə yaxın komada qaldım. Ayılanda inanmırdım ki, həyatdayam, sağam. Şuşanın azad olunması xəbərini elə xəstəxanada olarkən eşitdim. Bu qələbə müjdəsini bizə həkimlərimiz verdilər. Həmin gün çox sevincliydim. Ali Baş Komandanımızın əmri, xalqımızın qələbə əzmi, ordumuzun rəşadəti ilə torpaqlarımız azad olundu. Otuz illik həsrətimizə son qoyuldu. Vətənə az da olsa, borcumu qaytardığım üçün fəxr edirəm!”

Altı aydan sonra qazimiz “YAŞAT” Fondu tərəfindən müayinə, müalicə və reabilitasiya prosesləri üçün qardaş Türkiyəyə göndərildi. Bu barədə dedikləri: “Məni Türkiyəyə təyyarədə uzanıqlı vəziyyətdə apardılar. Orada neçə-neçə əməliyyat keçirdim. Əməliyyatlardan, fiziki tedavilərdən sonra birtəhər otura bildim, səhhətimdə xeyli irəliləyiş oldu. Həkimlər yeriyə biləcəyimin ancaq zamanla, idman məşğələləri ilə düzələcəyini söylədilər. Türkiyədə müalicə aldığımız zaman, 9 Noyabr – Dövlət Bayrağı Günündə şəhid generalımız Polad Həşimovun anası və bacısı bizim yanımıza gəldilər, müqəddəs bayramımızı birlikdə qeyd etdik. Komandir heyətimiz də bizimlə əlaqə saxlayırdı. Hazırda da tez-tez zəng edir, danışırlar”.

Vahidin cəsurluğu ölkə başçısının diqqətindən kənarda qalmayıb. “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə, eləcə də “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif olunub.

...Vahid İmanlının Türkiyədən müalicədən evinə qayıtması Yardımlıda əsl bayram olub. Şəhərin girişində o, ictimaiyyət nümayəndələri, qazilər, dostları və qohumları tərəfindən qarşılanıb. Daha sonra hamılıqla avtomobil karvanı ilə Şəhidlər xiyabanına gələrək torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizi ziyarət ediblər. Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov Vahidi evində ziyarət edib, qazimizin şərəfinə qurban kəsilib.

Görüşdə 44 günlük Vətən müharibəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun şanlı qələbəsi xoş sözlərlə xatırlanıb. Müqəddəs Vətən torpaqlarının düşmən tapdağından azad olunmasında misilsiz qəhrəmanlıq göstərən qazilərimizə cansağlığı arzuları çatdırılıb.

Söhbət zamanı qazi olan hər bir əsgərin ölkəmizin qəhrəmanlıq simvolu, Vətən uğrunda şəhid olmağı göz önünə alan igidlərin hər birinin şərəf nişanəsi olduğu və daim qəhrəman adını daşıyacağı ifadə edilib.

**Sərvər KAMRANLI,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü**

# Şəkidə özünüməşğulluq layihələri



**Şəkidə özünüməşğulluq proqramı əsasında yaradılan təsərrüfatlara baxış keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov öncə rayonun Qoxmuq kənd sakini Lalə Məmmədsalahovanın təsərrüfatında olublar.**

Qeyd edək ki, təsərrüfatın rəhbəri 44 günlük Vətən müharibəsində şəhid olmuş Kazım Məmmədsalahovun həyat yoldaşıdır. Müraciətinə uyğun olaraq o, 2021-ci ildə maldarlıq zərfi üzrə aktivlərlə təmin edilərək fermasını yaradıb.

Sonra Oxud kənd sakini Samirə Salamovanın özünüməşğulluq proqramı çərçivəsində qurduğu dərzixanaya baş çəkilib. S.Salamova keçən il dərzilik zərfi üzrə avadanlıqlarla təmin edilərək öz kiçik biznesini qurub.

Hər iki proqram iştirakçısı onlara göstərilən sosial dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar qurduqları təsərrüfatlarını inkişaf etdirməyə səy göstərdiklərini vurğulayıblar.

Daha sonra S.Babayev və E.Usubov Şəki Reabilitasiya Mərkəzində əlilliyi olan şəxslərə göstərilən xidmətlərlə tanış olublar. Son illərdə müasir standartlara uyğun şərait yaradılan mərkəzdə Şəki və ətraf rayonlar üzrə əlilliyi olan şəxslər effektiv fizioterapevtik üsulların tətbiqi əsasında tibbi-sosial reabilitasiya xidmətləri ilə təmin olunur.

***Z.BƏŞİRQIZI, “Xalq qəzeti”***

# Nəriman Nərimanovun siyasi portretinə günümüzdən baxış

**Postsovet ölkələrində kütləvi şüurun dəyişməsi nəticəsində tarix elmi sovet stereotiplərindən, ideoloji ehkamlarından azad olundu, onun məzmunu milli dövlətçilik ideologiyası ilə zənginləşdi. Vətən tarixini yenidən nəzərdən keçirmək, ondan ibrət dərsləri çıxarmaq arzusu ölkəmizdə də milli tarixşünaslığın üstün istiqamətlərindən biri oldu. Bu baxımdan Azərbaycanın XX əsr tarixi xüsusi mərhələ təşkil edir.**

XX əsrin 20-ci illərində Azərbaycanda bir-birini əvəz edən iki respublika – Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Sovet Sosialist Respublikası yaranmışdır. Vaxtilə Rusiya imperiyasına qarşı mübarizənin inqilabi-demokratik qanadını təmsil edən bu respublikaların siyasi liderləri Azərbaycan müstəqillik əldə etdikdən sonra əks siyasi düşərgələrə keçdilər. Ölkənin inkişaf yolları ilə bağlı onlar arasında olan fikir ayrılığı vətənpərvərlik hissindən, öz xalqını çiçəklənmə və firavanlıq yolu ilə aparmaq arzusundan qaynaqlanırdı.

Belə simalar arasında Nəriman Nərimanov xüsusi yer tutur. Stalin diktaturası və şəxsiyyətinə pərəstiş dövründə partiya və dövlət quruculuğu məsələlərində rəsmi siyasətə fərqli mövqedən çıxış edənlərə sovet tarixşünaslığı da rejimin diqtəsi ilə “əks-inqilabçı”, “millətçi”, “xalq düşməni” və s. damğalar vururdu. Elə olurdu ki, Kommunist partiyasında və sosialist hərəkatında görkəmli rol oynamış bəzi tanınmış sovet dövlət xadimlərinin də fəaliyyəti şübhə altına alınırdı.

Azərbaycanın belə görkəmli ictimai və dövlət xadimlərindən biri də Sovet Azərbaycanı hökumətinin ilk rəhbəri, ölümündən bir müddət sonra “millətçi” sayılaraq unudulmuş, sonradan 1950-ci illərin ikinci yarısında – “Xruşşov mülayimləşməsi” dövründə bəraət almış, demək olar ki, Stalin repressiyalarının qurbanı kimi tariximizə qaytarılmış Nəriman Nərimanov idi. 1972-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə anadan olmasının 100 illiyi münasibətilə Bakıda Nəriman Nərimanovun abidəsi ucaldılmış, yubileyi qeyd edilmişdir. Bu abidənin ucaldılması N. Nərimanovun görkəmli siyasi və ictimai xadim kimi tam bəraət almasını təcəssüm etdirdi.

Bu münasibət tədqiqatçılara N. Nərimanovun sovet ideologiyası ilə müəyyən edilmiş elmi çərçivələrdə çoxşaxəli fəaliyyətini daha dərindən öyrənməyə şərait yaratdı. Bütün bunlarla yanaşı, görkəmli dövlət xadiminin bir çox əsərləri hələ də qadağan edilmişdi və tədqiqatlara cəlb olunmurdu. Lakin 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra N. Nərimanov bu dəfə “yeni vətənpərvərlər” tərəfindən hücuma məruz qaldı. Onlar Azərbaycanın sovet keçmişinin siyasi xadimlərini ciddi tənqid edirdilər, bu insanların xidmətlərini nəzərə almadan hamını bir sıraya qoyurdular.

Ümummilli lider Heydər Əliyev respublikanın elmi ziyalıları ilə görüşdə Azərbaycanın sovet tarixinə ümumi qiymət vermiş, bu dövrdə xalqımızın əsas nailiyyətlərini və itkilərini vurğulamışdır. Heydər Əliyevin çıxışında Sovet Azərbaycanının görkəmli dövlət xadimi Nəriman Nərimanovun fəaliyyətinin qiymətləndirilməsi xüsusi yer tutmuşdu.

Ulu öndər çıxışında bildirmişdir: “Son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz. Bunu deyən adamların Nəriman Nərimanov səviyyəsinə qalxmaları üçün, bəlkə də, on illərlə siyasi fəaliyyət göstərmələri lazımdır. Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir”.

Qeyd etmək lazımdır ki, Nərimanovun siyasi yolunun başlanğıcı 1905-1907-ci illərdəki inqilabi hərəkat dövrünə təsadüf edir. Bu dövrdə onun fəaliyyət dairəsi kifayət qədər geniş idi: həkim, publisist, yazıçı, “Hümmət” təşkilatının Tiflis komitəsinin qurucularından biri. 1917-ci ilin fevralında Rusiyada monarxiyanın devrilməsi zamanı Nərimanov artıq türk xalqları arasında tanınmış siyasi xadimlərdən biri idi. 1917–1918-ci illər Nərimanovun dövlət xadimi kimi formalaşmasında mühüm mərhələ təşkil etmişdir. Qafqaz xalqlarının tarixinin hadisələrlə zəngin olan bu dövrü onun ideoloji baxışlarının formalaşmasına böyük təsir göstərmişdir.

O, sosialist hərəkatının bolşevik yolunu seçmişdir. Lakin 1918-ci ilin martında Bakıda və Bakı quberniyasında baş verən qanlı hadisələr, S. Şaumyanın başçılıq etdiyi bolşeviklərin dinc müsəlman əhalinin soyqırımı bahasına burada sovet hakimiyyətini qurması Nərimanovu ilk dəfə olaraq bolşevizmə olan inamını sarsıtmışdır. Nərimanovun bu tarixi hadisələrdə rolu, yumşaq desək, onu “xəyanətkar” kimi təqdim etməyə çalışan müəlliflər tərəfindən birmənalı qiymətləndirilmir.



N.Nərimanovun 1918-ci ilin mart hadisələri ilə bağlı mövqeyini sənədlərlə təsdiq etmək üçün onun 3 aprel 1918-ci il tarixində “Hümmət” qəzetində dərc olunmuş S. Şaumyana və P. Caparidzeyə yazdığı məktubunu misal kimi gətirmək olar. Həmin məktubda Nərimanov S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin müsəlman əhaliyə qarşı sərt hərəkətləri ilə bağlı narahatlığını bildirir və mart hadisələrinin sovet hakimiyyəti üçün mümkün ağır nəticələrini dəqiq proqnozlaşdırır: “Əgər yaxın gələcəkdə bu qara pərdəni yarıb, ləkəni silməsəniz, bolşevik düşüncəsini və Sovet hakimiyyətini burada qoruyub saxlaya bilməyəcəksiniz”. Nərimanovun bu sözləri, həqiqətən, uzaqgörənlik timsalı idi.

Nəriman Nərimanovun milli-dövlətçilik baxışlarının həyata keçirilməsi baxımından ikinci mühüm mərhələni 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövrü təşkil edir. Nərimanov bu dövrdə Rusiyada olmasına və AXC-nin siyasi həyatında bilavasitə iştirak etməməsinə baxmayaraq, o, Azərbaycanda hadisələrin inkişafını diqqətlə izləyərdi. O, Azərbaycanda milli hakimiyyətin qanlı şəkildə dəyişdirilməsinin, 1918-ci il hadisələrinin təkrarlanmasının tərəfdarı deyildi. N. Nərimanovun əsas məqsədi Azərbaycanı bolşevik inqilabının qanlı və dəhşətli fəsadlarından qorumaq, 1918-ci ildə baş vermiş qanlı hadisələrin Azərbaycanda təkrarlanmasının qarşısını almaq, sovet sistemini sülh yolu ilə qurmaq, Azərbaycan neftinə sahib çıxmaq, Türkiyənin milli azadlıq hərəkatına yardım göstərmək idi.

Sual yaranır: əgər Nərimanov hakimiyyətə gəlməsəydi, Rusiya qoşunları Azərbaycanı işğal etməyəcəkdi? Bolşeviklər Azərbaycanın sovetləşməsi ideyasından, yaxud Azərbaycan neftinə sahib olmaq istəyindən imtina edəcəkdi? Belə bir anda kimsə tarixi məsuliyyəti öz üzərinə götürməli, xalqını və Vətənini daha da ağır bəlalardan qorumalı idi. Bütün bunları bilən N. Nərimanov bu mürəkkəb və ziddiyyətli missiyanı öz üzərinə götürdü.

1920-ci il aprelin sonunda AXC Parlamenti hakimiyyəti Azərbaycan bolşeviklərinə təhvil verəndə Nərimanov Azərbaycanda yox idi. O, Bakıya yalnız 16 may 1920-ci ildə gələrək Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinə və Xalq Komissarları Sovetinə rəhbərlik etmişdir. Beləliklə, Nərimanovun siyasi fəaliyyətində üçüncü və ən ağır dövr başladı. Nərimanovun AXC-nin görkəmli dövlət xadimlərinə münasibətini Fövqəladə komissiyanın zindanlarından iki azərbaycanlı generalın, AXC hökumətin hərbi naziri Səməd bəy Mehmandarovun və onun müavini Əliağa Şıxlinskinin azad edilməsi, bolşeviklərə müxalif olan “Müsavat” partiyasının lideri M. Ə. Rəsulzadənin Moskvaya təhlükəsiz səfərinin təmin edilməsi nümunəsində görmək olar.

N. Nərimanovun respublikanın ali dövlət hakimiyyəti orqanlarına rəhbərlik etməsinə baxmayaraq, Sovet Azərbaycanında real hakimiyyət Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitəsinin və onun Bakı Komitəsinin əlində idi. Onların tərkibi isə əsasən Moskvanın maraqlarını ifadə edən gənc azərbaycanlı və qeyri-millətlərdən olan kommunistlərdən ibarət idi. Bu ziddiyyətli vəziyyət əvvəldən respublikanın partiya rəhbərliyində iki qrupun – gənc azərbaycanlı və qeyri-millətlərdən olan kommunistlərdən ibarət və əsasən də partiya təşkilatının Bakı Komitəsində cəmlənmiş “sol” və Nərimanovun rəhbərlik etdiyi milli-sapınçılar qrupunun formalaşmasına gətirib çıxartmışdır.

Nərimanovun 1922-ci ildə Azərbaycandan uzaqlaşdırılmasına qədər, onun rəhbərlik etdiyi milli-sapınçılarla bu qrup arasında mübarizədə üstünlüyün kimin tərəfində olacağından asılı olaraq respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatının ən mühüm məsələlərinin həlli asılı idi. V. Lenin və İ.Stalinə yazdığı məktublarda o, respublikanın siyasi həyatında sabitliyin pozulmasında əsas rol oynayan, 1918-ci il qanlı hadisələrdə öz daşnak simasını göstərmiş erməni kommunistlərinin yüksək vəzifələrə təyin edilməsinin əleyhinə idi.

Azərbaycanda “solçu” və milli-sapınçıların nümayəndələri arasında baş verən ixtilaflarda mərkəzi fiqur olan Nərimanov tədricən Mərkəzi bolşevik rəhbərliyinin səbr kasasını daşdırdı. 1922-ci ilin yanvarında N. Nərimanov Tiflisdə daimi iştirakını tələb edən Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının İttifaq Şurasının Rəyasət Heyətinin üç sədrindən biri təyin edildi. Belə kombinasiyalarla Moskva N. Nərimanovu Azərbaycandan təcrid edərək onu Vətənlə bağlayan bütün bağlarını qırmağa çalışdı.

N. Nərimanovun, guya, Ermənistanla münaqişədə Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlaya bilməməsi ilə bağlı ittiham olunması bu gün də aktuallığını itirməyib. Bu hücumlar Azərbaycanın müstəqilliyinin ilk illərində, Ermənistan növbəti dəfə 1988-ci ildə Dağlıq Qarabağa iddialar irəli sürdüyü zaman xüsusilə aqressiv xarakter almışdır. Lakin Nərimanovun həmin opponentləri etiraf etmək istəmirdilər ki, məhz sovet hakimiyyəti dövründə əvvəlki illərin qanlı Ermənistan–Azərbaycan ərazi münaqişəsinə son qoyuldu, respublikalar arasında bu gün bütün beynəlxalq təşkilatlar tərəfindən dövlət sərhədləri kimi tanınan sərhədlər quruldu.

Kremlin və onun Azərbaycandakı emissarlarının güclü təzyiqinə, bölgədəki mürəkkəb geosiyasi vəziyyətə baxmayaraq, qətiyyətliyini nümayiş etdirərək N. Nərimanov real imkanları çərçivəsində Azərbaycan SSR-in tərkibində Naxçıvanı, Dağlıq Qarabağı, Şərqi Zəngəzuru və Zaqatalanı qoruyub saxlaya bilmişdir. Beləliklə, Nərimanov ərazi məsələlərinin həllində təcrübəli siyasətçi kimi, real siyasi konyektura ilə hesablaşaraq, Azərbaycan üçün bundan maksimum yararlanmağı bacarmışdır.

Nərimanovun Türkiyənin Ankara hökuməti ilə dostluq və qardaşlıq münasibətləri qurmaq səyləri də Azərbaycanın ərazi bütövlüyü məsələsinin ədalətli həllində böyük rol oynamışdır. Nərimanov haqlı olaraq SSRİ ilə Türkiyə arasında dostluq münasibətlərinin qurulmasının əsas memarlarından biri hesab edilə bilər.

N. Nərimanovun Azərbaycan Sovet hökumətinin başçısı kimi fəaliyyətinin mühüm istiqamətlərindən birini respublikada təhsilin, elmin inkişafına və ziyalılara göstərdiyi qayğı təşkil edirdi. Azərbaycanın sovetləşməsi dövründə respublikada yalnız bir ali təhsil müəssisəsi –eyni zamanda elmi mərkəz kimi fəaliyyət göstərən Bakı Universiteti mövcud idi. Nərimanovun yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda ali məktəblərin sayı artdı.

N. Nərimanovun dövlət quruculuğu siyasətində milli ziyalılara olan qayğısı xüsusi yer tuturdu. N. Nərimanovun rəhbərlik etdiyi Azərbaycan SSR hökumətinin qərarı ilə Azərbaycan dilinə dövlət dili statusu verilmişdir. N. Nərimanov müsəlmanların dini hisslərinə həssaslıqla yanaşaraq XI Qırmızı Ordunun hərbi hissələrinin yerləşdiyi məktəb, məscid binalarından çıxarılmasına bir çox hallarda nail olmuş və müsəlman bayramlarını istirahət günləri elan etmişdir. Beləliklə, N. Nərimanovun milli-dövlətçilik baxışlarının prioritet istiqamətini Azərbaycan xalqının milli-mədəni inkişafı, Azərbaycan dilinə dövlət dili statusu vermək istəyi, xalqın dininə və ənənələrinə hörmət, onun elminin və təhsilinin inkişafına qayğı təşkil edirdi.

N. Nərimanov 1925-ci ilin yanvarında oğlu Nəcəfə vəsiyyət məzmunlu məktub yazmışdır. Orada sovet hakimiyyətinin qüsurlarını tənqid edən Nərimanov Azərbaycanda bolşevizmin tezliklə dağılacağını bildirmişdi. Bu dövrdə hakimiyyətin ayrı-ayrı şəxslər tərəfindən qəsb edilməsi və bolşevik liderlərinin şəxsiyyətinə pərəstiş ilə bağlı Nərimanovun narahatlıqları artıq aydın şəkildə özünü büruzə verirdi və SSRİ-nin ictimai-siyasi həyatında normaya çevrilmişdi. Nəticədə, Nərimanovun adı 1950-ci illərin ikinci yarısına qədər tamamilə unudulmağa məhkum edilmişdi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən onun sövet dövrünü obyektiv qiymətləndirməyə çalışan tarixçilər Nəriman Nərimanovun zəngin ictimai-siyasi irsinə dönə-dönə müraciət edərək onu dərindən araşdırmağa və dərk etməyə çalışırlar.

***İlqar NİFTƏLİYEV,***
***AMEA Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Matriarxata qəsd hansı məqsədlə edilib?

**Patriarxatdan əvvəlki matriarxat mədəniyyəti haqqında çox danışılır. Amma insanlığın taleyindəki bu dəyişikliyin səbəbləri və hərəkət trayektoriyası barədə söz açan çox azdır. Təbii, şablon şəkildə söylənilənləri nəzərdə tutmuruq. Belə bir versiya da var ki, matriarxat və qadın hakimiyyəti qadınların müasir sivilizasiyaya maneçilik törədən dindar təbiətə malik olduqlarından aradan qalxıb, yaxud məqsədli şəkildə aradan qaldırılıb.**

Bəli, məqsədli şəkildə. Heç kəsə sirr deyil ki, Yaxın Şərqdəki müharibələr qlobal güclərin oyunudur. Bu oyunda müxtəlif məqamlar ortaya atılır – neft, demokratiya və sair. Ayrı-ayrı qrupların maraqlarından da söhbət açmaq mümkündür. Sual olunur: oyunların muzeylərə və kitabxanalara aidiyyatı nədir? Səbəb nədir ki, həmin yerlərə də od vurulub...



Diqqət yetirək: hələ 2011-ci ildə Misirin paytaxtı Qahirədəki küçə etirazları gedişində dünya tarixinin inkişafının müxtəlif mərhələlərini əks etdirən nadir nümunələr məhv edilmişdi. Elmi mərkəz adlandırılan qədim kitabxana Misir parlamentinin binasının yalnız bir hissəsini təşkil edirdi. Təxribatçılar kütləni məhz həmin istiqamətə tərəf yönləndirdilər və binaya yanğıntörədən vasitələr atdılar.

Liviyadakı müharibə zamanı isə ölkənin milli bankından özündə antik dövrün 10 min incəsənət predmetini birləşdirən “Benqazinin xəzinəsi” adlı arxeoloji külliyyat yoxa çıxdı. Bundan başqa Leptis Maqna və Sabrat kimi şəhərlər bombardımana məruz qalaraq Yer üzərindən, demək olar silindi.

İraq amerikalılar tərəfindən ələ keçirilən ilk gün Bağdadın milli muzeyi qarət olundu. Eyni aqibəti ölkənin antik dövr sənədlərinin saxlandığı milli kitabxanası da yaşadı. Bütün bunları təsadüf kimi qiymətləndirmək mümkünsüzdür.



Nəzərə alsaq ki, yuxarıda sadaladığımız məxəzlərdə qədim dövrün, yəni matriarxatın nümunələri saxlanılırdı. Deməli, həmin məkanların yer üzündən silinməsi məqsədli imiş. Məqsəd isə matriarxata məxsus dəyərlərin sıradan çıxarılmasıdır. Nə üçün? Suala cavab axtaraq.

***

Nə vaxtsa dünyanın vahid torpaqdan – Pangeyadan ibarət olduğunu təsəvvürə gətirsək və nəzərə alsaq ki, başlanğıc matriarxatdan qurulub, uzun müddət gerilik içərisində olan Şərqdə, əslində, ictimai-siyasi formasiya tipinin əsrlərlə saxlanılması fonunda, yəni istehsal münasibətlərindəki dəyişikliklərin çox ləng getdiyi bir dövrdə qadın amili öz varlığını qoruyurdu. Ənənəvi xüsusiyyətlərdən biri də sonrakı tərəqqi dönəmində bu ənənənin saxlanılması olmuşdu və mədəniyyətlər də inkişafını məhz qadın sindromu ilə bağlı tapırdı. Mövcud mənada amazonkaların bütün dünyada yaşadıqlarını, məhz indiki Liviya ərazisində isə hələ Misirin yaranmasından da min il əvvəl olduqlarını söyləmək mümkündür.

Qadına dəyər onun dünyanın dərk etmək bacarığı ilə bağlıdır. Burada heç də məsələ qadının təhlil qabiliyyətinin yüksəkliyində deyil, hərçənd son araşdırmalar göstərir ki, qadınlar bu mənada kişilərdəndən daha yüksəkdədirlər. Məsələ sadəcə intuisiyadadır. O intuisiyada ki, hər hansı hesablamasız, təhlilsiz, intellektual mühakiməsiz – filansız, sadəcə olaraq, bilmək bacarığı üzərində köklənib.

Məsələyə bir qədər də fəlsəfi yanaşsaq, inanclı qadınları məhv edən patriarxal kilsə və onunla müttəfiq olan patriarxal dövlətlər, əslində, solyarımkürəli insan tipi formalaşdırıblar. Bu insan intuitiv düşünmə qabiliyyətindən məhrum olaraq Allahla da əlaqəsini itirir. Buna görə xristian aləmində çox tez-tez belə bir sual ortaya çıxır: din xadimi olaraq kimi görürsünüz, qadını, yoxsa kişini? Sual birincinin xeyrinə cavablandırılır və iddia olunur ki, əgər insanı Allah yoluna gətirməkdən söhbət gedirsə, bunu qadın etməlidir. Çünki Tanrını intellektlə dərk etmək mümkünsüzdür.

İndi isə təsəvvür edin ki, Aralıq dənizi hövzəsində amazon mədəniyyətinin izləri var. O mədəniyyətin ki, müharibələrsiz filansız insanların azalma-artma səviyyəsini tənzimləyib. Həmin mədəniyyətə xas xüsusiyyət dövlətin öz vətəndaşına münasibətdə məhz ana qayğısı göstərməsidir ki, həmin qayğı, eyni zamanda, Allahın düzgün dərkinə yol açır. Mövcud cəhətə diqqət yetirənlər bəzən bunu yəhudilərin və Yerusəlimin əsl tarixi kimi qələmə verirlər. Hərçənd, belə bir mədəniyyətə, sözün yaxşı mənasında, hamı iddia edə bilər və hamının da ondan nə isə yaxşı şey götürməsi məqbuldur.

Vaxtilə avropalıların üzərində indiki ABŞ-ın da qərarlaşdığı torpaqlarda matriarxat hökm sürürdü. O quruluş məhvə məruz qaldı. Hazırda isə qlobal güclərin hərəkətləri ilə eyni zamanda, həmin quruluşun daşıdığı mədəniyyəti də yox edilir. Nəticədə hər şeydən, hər cür zəruri müqəddəslikdən, dəyərlərdən uzaqlaşma meyilləri yaranır. Belə mövcudiyyətdə isə əsrlərlə qərarlaşmış mədəniyyətdən, mənəvi baxımdan bir-birindən uzaq, deqredasiyaya uğramış yırtıcı insan obrazı formalaşır ki, ondan istənilən məqsədlər üçün “yararlanmaq” mümkündür. Dünyadakı hazırkı proseslərə diqqət yetirdikdə, həmin “məqsədlər”i asanlıqla görə bilərik.

***R.AMİN***

# Nüvə müharibəsi mövzusu 78 il sonra Xirosimada: taleyin istehzası, yoxsa...

## "Böyük yeddilər"in "Gündoğar ölkə"də keçirilən sammiti bu gün başa çatır

**Dünyanın ən inkişaf etmiş yeddi dövlətindən ibarət "Böyük yeddilər" klubunun mayın 19-da başlanan sammiti bu gün başa çatır. ABŞ başda olmaqla, klubun üzvləri planetin üzləşdiyi çağırışları müzakirə edərək çıxış yolları axtarırlar. Onlar dünyanın "yükü"nü öz çiyinlərinə götürməyə iddialıdırlar. Amma buna gücləri çatacaqmı? Çətin! Lakin hər şeyin düzünü zaman bilir.**



Son dərəcə gözəl bir məkanda yerləşən Xirosima şəhərinə düz 78 il əvvəl, eləcə də digər yapon şəhəri Naqasakiyə ABŞ Silahlı Qüvvələri tərəfindən atom bombası atılıb. Bu əmri ABŞ Prezidenti Harri Trumen verib. O zaman bu iki şəhərdə iki yüz minə yaxın dinc sakin həlak olub. Bu gün də həmin dəhşətli anlar insanların yaddaşında görünməmiş fəlakət anı kimi sonsuz bir kədərlə xatırlanır.

Hazırkı ABŞ Prezidenti Co Bayden dünən Xirosimada "Sülh Memorialı"nı ziyarət edib, o dönəmdə baş verən hadisəyə görə çox üzüldüyünü bildirsə də, üzr istəməyib. Əlbəttə, yaponlar bundan narazı qalıblar. Taleyin işinə bax ki, "Böyük yeddilər"in bugünlərdə Xirosimada keçirilən sammitinin gündəmində duran ən aktual məsələlərdən biri məhz dünyada nüvə silahından istifadənin qarşısının alınmasıdır.

Sammitdə qeyd olunub ki, bu gün dünyada nüvə silahından istifadə təhlükəsi xeyli artıb ki, azalmayıb. Belə ki, 2022-ci il fevralın 24-də Ukrayna ərazisinə hücum edən Rusiya cəbhədə kəskin müqavimətlə rastlaşdıqdan sonra qarşı tərəfi, o cümlədən rəsmi Kiyevi dəstəkləyən beynəlxalq koalisiyanı taktiki nüvə silahı ilə hədələyir. Uzun illərdir ki, Şimali Koreya diktatoru Kim Çen In planeti atom bombası ilə şantaj edir. Hələlik dünya nüvə təhdidlərinə qarşı çıxış yolu tapa bilmir.

Yeri gəlmişkən, əslən Xirosima şəhərindən olan Yaponiyanın hazırkı Baş naziri Fumio Kişida jurnalistlərə bildirib ki, dünya liderləri ötən sammitdə olduğu kimi, bu dəfə də ən çox Rusiya–Ukrayna müharibəsinin həlli yollarını araşdırıblar. Onun sözlərinə görə, Rusiyanın təcavüzünə məruz qalan Ukrayna öz ərazi bütövlüyünü təmin edənə qədər bu ölkəyə hər cür hərbi, iqtisadi və maliyyə dəstəyi göstəriləcək.

Yeri gəlmişkən, dünən Ukrayna Prezidenti Volodimir Zelenski G7 sammitində iştirak etmək üçün Yaponiyaya gəlib. O, Fransa hökumətinin təyyarəsi ilə Xirosima hava limanına enib. Onun gəlib-gəlməyəcəyi barədə çox sayda ehtimallar səslənirdi. Lakin fakt budur ki, V.Zelenski artıq Yaponiyadadır və ali qonaq kimi tədbirə qatılıb.

Qeyd edək ki, Xirosimada ABŞ və Ukrayna lideri köhnə dostlar kimi çox səmimi görüşüblər. Prezident Co Bayden görüşdən sonra Ukraynaya əlavə maliyyə və hərbi yardım göstəriləcəyini bildirib. Zelenskinin "Böyük yeddilər"in digər liderlərindən də Ukraynaya hərbi dəstəyin artırmasını xahiş edəcəyi gözlənilir.

Xirosimada gedən müzakirələri dünyanın ikinci böyük dövləti olan Çin rəhbərliyi böyük diqqətlə izləyir. ABŞ və onun müttəfiqləri rəsmi Pekini Sakit okean regionunda gərginliyi artırmaqda günahlandırırlar. Çin rəhbərliyi bunu təkzib edir və "Böyük yeddilər"in liderlərini özlərini ağa kimi aparmaqda suçlayır.

Qərb mətbuatı isə yazır ki, Prezident Co Baydenin qarşısında duran əsas vəzifə Xirosimada Çinə qarşı dünya güclərini öz ətrafında birləşdirməkdir. Vaşinqtonda hesab edirlər ki, cəmi bir neçə ildən sonra Çini "ram etmək" çətin olacaq. Buna görə də Birləşmiş Ştatlar Rusiyanı diz çökdürüb bütün gücünü ən böyük rəqibi hesab etdiyi "Sarı əjdaha"ya qarşı yönəltmək niyyətindədir.

Təbii ki, rəsmi Pekin özünə dost və tərəfdaşlar axtarmaqla məşğuldur. İki gün əvvəl Çinin qədim Sian şəhərində keçirilən Çin–Orta Asiya liderlərinin sammiti də Pekinin bu planlarından xəbər verir. Pekin Rusiya və Braziliyanı, eləcə də Qərbdən incik düşən bir çox ölkələri öz nüfuz dairəsinə cəlb etməyə çalışır.

Görünən budur ki, yeni dünya düzəni formalaşır. Faktiki olaraq dünyada siyasi qütbləşmə getdikcə güclənir. Yaxın aylar və illər ərzində lokal müharibə ocaqlarının daha da artacağı, böyük güclərin vəkalət savaşlarına cəlb olunacağı gözlənilir.

Şübhəsiz, dünyada ağır müharibə və toqquşmaların baş verməməsi üçün ABŞ və Çin liderlərinin ümumi dil tapması çox vacibdir. Bu, yaxın gələcəkdə baş verəcəkmi? ABŞ Prezidenti yaxın vaxtlarda Çin rəhbəri Si Cinpin ilə görüşəcəyini istisna etməyib. Bu görüşün real nəticələrindən çox şey asılı olacaq.

***M.ABDULLAYEV, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Mübariz Məmmədli, filologiya üzrə fəlsəfə doktoru, siyasi icmalçı**

Hazırda dünyanın ən inkişaf etmiş sənaye ölkələri sayılan ABŞ, Kanada, Yaponiya, İngiltərə, Almaniya, Fransa və İtaliya özlərinin "G-7" sammitini keçirmək üçün İkinci Dünya müharibəsində ABŞ-ın atom bombası atdığı Xirosima şəhərində bir araya gəlmişlər. Bu, "G-7"lərin son yeddi ildə Yaponiyada keçirilən ilk zirvə toplantısıdır.

Maraqlıdır ki, say baxımından da, bu toplantı Yaponiyada 7-ci dəfə keçirilir. Tədbirə Avropa İttifaqının rəhbərlərindən başqa, Avstraliya, Braziliya, İndoneziya, Cənubi Koreya, Vyetnam, Kuk adaları və Komor adaları İttifaqının liderləri dəvət olunublar. Bir sıra beynəlxalq təşkilatların – BMT, Dünya Bankı, ÜST, Beynəlxalq Enerji Agentliyi, BVF və Ümumdünya Ticarət Təşkilatının nümayəndələri də toplantıda iştirak edirlər.

Verilən xəbərlərə görə, iclaslarda Ukrayna müharibəsi, nüvə silahlarından imtina, ərzaq böhranı, ekoloji cəhətdən təmiz, dayanıqlı enerjiyə keçid, Çinin dünyanın siyasi və iqtisadi mövqeyinə aid məsələlər müzakirə obyektidir.

Qeyd etmək lazımdır ki, Rusiya–Ukrayna müharibəsi zəminində Ukraynaya "F-16" qırıcı təyyarələrinin verilməsi gündəmdədir. Ümumiyyətlə, Ukrayna məsələsi, keçən il olduğu kimi, builki sammitdə də əsas məsələ kimi müzakirə olunur.

Toplantının ilk iş günü haqqında əldə olunan məlumatlardan belə qənaətə gəlmək olar ki, "F-16"ların üçüncü ölkə vasitəsilə Ukraynaya verilməsinə ABŞ etiraz etməyəcək. Ola bilsin ki, bu, ABŞ istehsalı olan uzaq məsafəli qırıcı təyyarələrin döyüş bölgəsində istifadə olunması haqqında qərarın ABŞ tərəfindən qəbul edilmədiyini göstərən bir göründüdür.

Çinlə bağlı müzakirələrin sammitdə yer alacağını bildirən məlumatların ardınca bu ölkənin rəsmiləri "Böyük yeddilər"i özündən razılıq, digər ölkələri aşağılamaq kimi istəklərdə olduqlarını bildirən bəyanatlarla çıxış etdilər. Çin XİN sözçüsünün fikrincə, özlərini "böyük" hesab edənlər digər ölkələrdə qardaş qırğınlarına rəvac verən, ölkələrin suverenliyini və ərazi bütövlüyünün ələyhinə yönəlmiş addımlara yol verməməlidirlər.

Sammitlə bağlı dünya informasiya məkanında ən çox hallanan məlumatlardan biri, bəlkə də birincisi, ABŞ Prezidentinin Xirosimadakı "Sülh Memorialı"nı ziyarət edərkən 78 il bundan əvvəl baş vermiş hadisəyə görə üzr istəməyəcəyini bildirməsi oldu.

# Qlobal bərpaolunan enerji layihələrinə maraq getdikcə artır

**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera tərəfindən beynəlxalq mediada yayılan məlumata əsasən, qlobal miqyasda bərpaolunan enerji mənbələrin 40 faizinin reallaşdırılmasına nail olunub. Lakin buna baxmayaraq hazırda qlobal istiləşmənin 1,5 selsi səviyyəsindən aşağı saxlanılması üçün transmissiyanın həcminin 3 giqavatdan (GW) 2030-cu ildə 10 GW-dək artırılması zərurəti ilə üzləşilib.**

Baş direktorun sözlərinə görə, qarşıda duran vəzifəni gerçəkləşdirmək üçün genişhəcmli investisiya tələb edilir. Bunun üçün isə sərmayələrin daha ədalətli şəkildə ölkələrə yönəldilməsi dövlət sektorunun müdaxiləsindən asılıdır.

Françesko La Kameran, eyni zamanda, bərpaolunan enerji mənbələrinin reallaşdırılması məqsədilə inkişaf etməkdə olan ölkələrə daha çox vəsait yönəltmək üçün kollektiv səylər tələb etdiyini vurğulayıb. Onun fikrincə, həmin ölkələrə dəstəyin əsaslı şəkildə yaxşılığa doğru dəyişməsi isə təmiz enerjiyə çıxışa və iqlimə uyğunlaşmaya daha çox fayda verə bilər. Bu prosesdə isə maliyyə institutları tərəfindən daha yaxşı şərtlərlə daha çox vəsait enerji keçidi layihələrinə yönəldilməli və yeni enerji sisteminin inkişafını reallaşdırmaq üçün lazımi fiziki infrastruktur qurulmalıdır.



İndi isə bir sıra ölkələrin bu sahədəki fəaliyyətinə qısa nəzər salmaq istərdik. Məsələn, Almaniya hazırda dünyada bərpaolunan enerji mənbələrinin inkişafında və tətbiqində haqlı olaraq lider sayılır. Bu dövlət hərtərəfli düşünülmüş enerji siyasəti və sözügedən sektorun inkişafının onilliklər boyu dəstəklənməsi sayəsində bərpaolunan enerjinin təbliğində, nəzəri texnologiyaların iqtisadiyyatda tətbiqində mühüm rol oynayır.

Almaniyada 2030-cu ilə qədər elektrik enerjisi tədarükünün yarıdan çoxunun və bütün enerjinin təqribən üçdəbir hissəsinin məhz bərpaolunan enerji mənbələri hesabına təmin edilməsi planlaşdırılır. Ekspertlər tərəfindən bu sahədə aparılan təhlillər göstərir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün ölkədə böyük potensial var.



Xatırladaq ki, COVID-19 pandemiyası ilə yadda qalan 2020-ci ildə Almaniya kömürdən istifadənin azaldılmasını, külək, günəş və bioqaz enerjisinin rolunun artırılmasını elan edib. Məhz həmin dövrdə bu ölkədə istehsal edilən elektrik enerjisinin yarıdan çoxu, daha dəqiq desək, 51,2 faizi sözügedən mənbə hesabına yaranıb və bu, böyük göstərici kimi qeydə alınıb. Şübhəsiz ki, burada COVID – 19-un iqtisadiyyata təsiri də özünü aydın göstərib, lakin pandemiyanın təsirinin getdikcə zəifləməsinə baxmayaraq bərpaolunan enerjiyə meyil dəyişməyib.

Onu da deyək ki, Almaniyada elektrik stansiyalarının bir qismi hələ də kömürlə işləyir. Bu ölkədə daş kömür çıxarılması 2018-ci ilin sonunda dayandırılıb. Həmin vaxtdan daş kömür yalnız idxal edilib. Almaniya bazarına daş kömürün əsas tədarükçüsü Rusiya olub, bütün idxalın təqribən yarısı onun payına düşüb. Lakin Ukraynada müharibə və Moskvanın Rusiya qazına görə ödənişin yalnız rubl ilə aparılması barədə tələbləri ilə bağlı münaqişə "yaşıl enerji"yə keçidin sürətləndirilməsi məsələsini daha da aktuallaşdırıb.

Almaniyanın elektrik energetikasında kömürlə işləyən elektrik stansiyaların payının azaldılması ilə əlaqədar çox ehtimal ki, daş kömür alınması daha da azalacaq. Bu, həm də qonur kömürə tələbatın azalmasına gətirib çıxaracaq.

Beləliklə, nəticə etibarilə Almaniya elektrik energetikasında ən çirkli enerji daşıyıcısı kimi kömürdən istifadə edilməsindən 2038-ci ildən tez imtina edə bilər.

Burada maraqlı bir məqamı da xatırladaq. Belə ki, ötən ilin əvvəlində qəbul edilən yeni qanuna əsasən, Almaniyada dizel yanacağı, benzin, mazut və təbii qazın yandırılması zamanı əmələ gələn karbon qazının hər tonuna görə 25 avro ödənilməlidir. Bu isə avtomobil yanacağının və mənzillərin qızdırılmasının bahalaşmasına gətirib çıxarır.

Beləliklə, atmosferə karbon qazı tullantılarına görə, ödəniş tədricən artırılacaq və 2025-ci ilədək karbon qazının hər tonuna ödənişin məbləği 55 avroya çatdırılacaq. Bu da, öz növbəsində, elektrik avtomobillərindən istifadəyə keçid prosesini sürətləndirəcək.

ABŞ-da da "Yaşıl enerji" layihəsi çərçivəsində mühüm uğurlar əldə edilib. Bu ölkənin energetika informasiya idarəsinin ilkin məlumatına əsasən, 2020-ci ildə ABŞ-da ümumi enerji istehlakının təqribən 12,6 faizi və ölkə daxilində istehsal edilən elektrik enerjisinin təqribən 19,8 faizi bərpaolunan enerji mənbələrinin payına düşüb.

2019-cu ildən bəri külək energetikası ölkədə bərpaolunan elektrik enerjisinin ən iri istehsalçısıdır. 2020-ci ildə külək enerjisi sayəsində 337,9 teravat-saat elektrik enerjisi istehsal olunub. Bu, ölkədə elektrik enerjisi istehsalının ümumi həcminin 8,4 faizi və bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalının ümumi həcminin 43,2 faizi deməkdir. 2021-ci ilin oktyabr ayı üçün olan məlumata görə, ABŞ-da külək energetikasının sənədlərdə göstərilən gücü 130 meqavata yaxın olub.

ABŞ-da bərpaolunan elektrik enerjisinin ikinci ən böyük istehsalçısı hidroenergetikadır. Belə ki, 2020-ci ildə elektrik enerjisinin ümumi həcminin təqribən 7,3 faizi və bərpaolunan elektrik enerjisi istehsalının ümumi həcminin 36,4 faizi bu mənbə hesabına yaranıb. Birləşmiş Ştatlar dünyada hidroelektrik enerjisinin ən iri istehsalçıları arasında Çin, Kanada və Braziliyadan sonra dördüncü yeri tutur.

Birləşmiş Ştatlarda elektrik enerjisinin günəş energetikası hesabına təmin edilən hissəsi artmaqdadır: 2017-ci ildə quraşdırılmış istehsal güclərinin 50 giqavatdan çox hissəsi ölkənin elektriklə təchizatının ümumi həcminin təqribən 1,3 faizini istehsal edib. Müqayisə üçün qeyd edək ki, əvvəlki ildə bu göstərici 0,9 faiz olub. 2016-cı il üçün olan məlumata görə, günəş enerjisi sənayesində işləyənlərin sayı 260 min nəfəri ötüb. 43 ştatda isə energetika şirkətləri tərəfindən günəş batareyaları hesabına yaranan əlavə enerjini almaq üçün xüsusi sayğaclar quraşdırılıb.

Dünyada əhali sayına görə birinci, iqtisadiyyatın həcminə görə ikinci dövlət olan Çin Xalq Respublikası da bərpaolunan enerji sahəsində qısa müddətdə ciddi nailiyyətlər əldə edib.

Ekspertlərin fikrincə, bərpaolunan enerji sektoru qazıntı və nüvə enerjisi potensialına nisbətən daha sürətlə inkişaf edir və yaxın vaxtlarda dünya üzrə bərpaolunan enerji potensialının təxminən 43 faizini məhz Çin təmin edəcək.

Ötən il ölkənin bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalı 1000 giqavata çatıb ki, bu da Çinin ümumi generasiya gücü potensialının 43,5 faizi deməkdir. Mövcud dinamikaya nəzər yetirəndə Çin hökumətinin 2030-cu ilədək günəş və külək mənbələrindən 1200 giqavat enerji əldə etmək, habelə 2060-cı ilədək bütün enerjinin 80 faizini alternativ mənbələrdən təmin etmək hədəfinə çatacağı real görünür. Çin Dövlət Şurasının hələ 2013-cü ildə qəbul etdiyi fəaliyyət planında ölkənin enerji balansında bərpaolunan enerji mənbələrinin payını artırmaq niyyəti əksini tapıb.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

# "The New York Times": ABŞ F-16-ların Ukraynaya göndərilməsinə qapı açır

**ABŞ Prezidenti Cozef Bayden cümə günü ölkəsinin müttəfiqlərinə F-16-ların Ukraynaya uçuşlarına icazə verəcəyini söyləyib. Bu barədə "The New York Times" qəzeti yazıb. Məlumatda qeyd edilir ki, ukraynalı pilotlara Amerika istehsalı olan F-16 qırıcı-bombardmançı döyüş təyyarələrində təlim keçiriləcək. Prezident digər ölkələrin də Ukraynaya F-16-ları verməyə hazır olduğunu bildirib. Bu qərarın Ukrayna ordusunun əsaslı təkmilləşməsində və siyasi həyatında kəskin dönüş yaradacağı bildirilib.**

Təyyarələrin nə vaxt göndəriləcəyi hələ tam dəqiqləşdirilməyib. F-16-ları olan bəzi Avropa ölkələrinin rəsmiləri də Ukraynaya həmin təyyarələri vermək istədiklərini bildiriblər. Dövlət rəsmiləri, həmçinin ABŞ-ın yaxın aylarda Kiyevi döyüş təyyarələri ilə necə təmin edəcəyinin müzakirə olunacağını deyiblər. Pilot təliminin bir neçə ay çəkəcəyi qeyd edilib.

Qəzet yazır ki, bu xəbəri Böyük Britaniyanın Baş naziri Rishi Sunak müsbət qarşılayıb. O, özünün "Twitter" hesabında yazıb: "Birləşmiş Krallıq Ukraynaya ehtiyac duyduğu döyüş hava qabiliyyətini əldə etmək üçün ABŞ, Hollandiya, Belçika və Danimarka ilə birlikdə çalışacaq".



Prezident Baydenin qərarı Yaponiyanın Xirosima şəhərində "Böyük yeddilər"in liderləri arasında Ukraynanın gələcək illər ərzində Rusiyanın təcavüzünün qarşısını almaqla bağlı aparılan müzakirələr zamanı verilib.

Liderlər birgə bəyanatda Rusiyanın təcavüzünə qarşı Ukraynaya təhlükəsizlik yardımını davam etdirməyə verilən dəstəyi Ukraynanın ehtiyaclarına uyğunlaşdırmağa sadiq olduqlarını bildiriblər. Qrup "Ukraynanın tələb etdiyi müddət ərzində maliyyə, humanitar, hərbi və diplomatik dəstəyi təmin edəcəyinə söz verib.

Məqalədə qeyd edilir ki, ABŞ Prezidenti F-16-ların dərhal lazım olmadığını deyərək ayrı çağırışlara müqavimət göstərdi. Lakin o, həmçinin onların Rusiyanın daxilindəki hədəfləri vurmaq üçün istifadə oluna biləcəyindən və bununla da münaqişənin potensial olaraq gərginləşməsindən narahat idi. Bu, C.Baydenin Ukraynanı böyük silah sistemi ilə təmin etmək istəmədikdən sonra kursu dəyişməsi ilə bağlı son hadisə idi. Birləşmiş Ştatlar Ukraynanı mürəkkəb tanklarla təmin etməkdə tərəddüd edirdi, lakin Avropanın təzyiqindən sonra onlara söz verdi.

Qəzet yazır ki, mövqe dəyişikliyi cənab Zelenskinin "Böyük yeddilər"in sammitinə qoşulmasından bir neçə saat əvvəl baş verib.

***Tərcümə etdi: Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

# Bakıda bədii gimnastika üzrə Avropa çempionatı bu gün başa çatacaq

## *Bədii gimnastlarımız uğurlu çıxışlarını davam etdirirlər*



Bakıda "Ulduz kimi parla" şüarı ilə keçirilən 39-cu Avropa çempionatında gimnastların mübarizəsi böyük ruh yüksəkliyi ilə davam edir. Avropanın ən güclü gimnastları gözəl, zərif və eyni zamanda fantastik çevik hərəkətləri ilə azarkeşlərin qəlbini ovsunlamaqda davam edirlər. Milli Gimnastika Arenasındakı ab-hava yarış iştirakçılarından olan italiyalı gimnast Milena Baldassarrinin təbirincə desək, Venesiyadakı kino festivalını xatırladır.

İtaliya təmsilçisi açıqlamasında yarışın keçirildiyi arenanın tərtibatının da çox gözəl olduğunu, qırmızı rəngin idmançılara xüsusi enerji ötürdüyünü vurğulayır. Bakını çox sevdiyini deyən idmançı dəfələrlə Milli Gimnastika Arenasında yüksək səviyyədə təşkil olunan turnirlərdə iştirak etdiyini bildirir.

Dünya çempionu sonuncu dünya kuboku yarışlarında zədə aldığına görə məşqçisi ilə məsləhətləşərək Avropa çempionatında yalnız bir alət - lentlə çıxış etməyə qərar verib.

Almaniyadan ölkəmizə gələn tanınmış gimnast Darya Varfolomeyevin anası Tatyana Varfolomeyeva tamaşaçı kimi oyunları izləməkdən zövq aldığını deyir. Gimnastika arenasının zalının çox gözəl olduğunu, xalçanın yaxşı işıqlandırıldığını qeyd etməklə yanaşı, tamaşaçı tribunalarından çıxışlara baxmağın rahat olduğunu da vurğulayır. Bakıya ilk dəfə gəldiyini deyən T.Varfolomeyeva bələdçinin müşayiəti ilə İçərişəhərə ekskursiya etdiklərini, çoxlu tarixi yerlərlə tanışlığın onda xoş təəssürat oyatdığını söyləyir. Əlavə edir ki, yenidən Bakıya səfər etmək imkanı olsa, bunu məmnuniyyətlə edəcək.

Portuqaliyanın bədii gimnastika üzrə yığmasının baş məşqçisi Darina Vasilyeva Azərbaycanda olmaqdan böyük məmnuniyyət duyduqlarını, paytaxtımızda yarışların həmişə yüksək səviyyədə təşkil edildiyini deyib.



"Heç də bütün ölkələrdə gimnastlar üçün Azərbaycanda olduğu kimi şərait yaradılmır", - deyə Darina Vasilyeva əlavə edib. Portuqaliya yığmasının baş məşqçisi azərbaycanlı gimnastların hazırlıq səviyyəsini yüksək qiymətləndirib.

Qitə çempionatının dördüncü günündə gimnastlarımız çoxnövçülük üzrə finallarda mübarizə aparıblar.

Qrup hərəkətlərində 65.400 xal (iki hərəkətlər üzrə nəticələrin cəmi - beş halqa, həmçinin üç lent və iki top) toplayan Azərbaycanın böyüklərdən ibarət yığma komandası çoxnövçülükdə bürünc medal qazanıb.

Bolqarıstanın böyüklərdən ibarət komandası qızıl medala layiq görülüb, iki proqramın icrasına görə hakimlər ona 68,050 xal veriblər.

İki hərəkət proqramı üzrə 67.300 xalı olan İsrailin böyüklərdən ibarət komandası gümüş medal qazanıb.

Xatırladaq ki, Azərbaycan yığmasının heyətində Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Elizaveta Luzan və Daria Sorokina yer alıb.

Azərbaycan gimnastı Zöhrə Ağamirova 122,400 xalla çoxnövçülük yarışlarında yeddinci olub.

Bolqarıstan təmsilçisi Boryana Kaleyn dörd alət üzrə hərəkətlərin cəmində 131 xal toplayaraq qızıl medal qazanıb. İtaliya gimnastı Sofia Raffaeli 129,550 xalla yarışı ikinci, digər Bolqarıstan idmançısı Stiliana Nikolova isə 129,500 xalla üçüncü pillədə başa vurublar.

Yarışda "Shooting Star" mükafatı təqdim olunub. "SmartScoring" şirkəti tərəfindən xüsusi hazırlanan mükafat macarıstanlı gimnast Fanni Piqniçkiyə verilib.

Azərbaycanın Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət gənclər komandası isə qrup hərəkətlərində çoxnövçülük və beş topla proqramda iki bürünc medal qazanıb.

Qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər – 191, gənclər 124) mübarizə aparır.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

***Yaddaşlarda yaşayanlar***

# Daşaltı şəhidinin şair-publisist atası

**Doxsanıncı illərin əvvəlləri idi. Onda mən hələ radioda tam ştatda deyildim. Televiziyanın rəhbər texniki işçilərindən olan Həmid müəllimin (onun soyadını unutmuşam) oğlunun şəhid xəbəri gəlmişdi. Məsləhət oldu ki, Həmid müəllimlə görüşüm. Görüşdüm və "Dalğa" qəzetində "Şəhid atası ilə söhbət" adlı yığcam bir yazı verdim. Şəhidin qırx məclisi günlərində isə artıq radioda işləyirdim. "Səhər" musiqili informasaiya proqramında Həmid müəllimlə daha bir söhbət verdim və yenə də təqdimatda şəhid atası sözü var idi.**

Ertəsi günü Qaçay Köçərli dəhlizdə mənə dedi ki, İttifaq, o "şəhid atası" ifadəsi Həmidi öldürəcək. Daha o sözü işlətmə.

Qaçay Köçərli haqqında yazının əvvəlində Həmid müəllimin şəhid oğlu haqqında danışmağımın səbəbi odur ki, Qaçay müəllimi də Həmid müəllim kimi məhz "şəhid atası" ifadəsi öldürdü. Oğlu Elcan Şirinov Daşaltı əməliyyatında mühasirəyə salınaraq öldürülən gənclərimizdən idi. Bir dəfə sızıldaya-sızıldaya demişdi ki, mən övladı şəhid olan valideynlərin heç birindən fərqli deyiləm. Fərq ondadır ki, mən oğlumu əsgərliyə yola salmamışdım. Anası onun alnından öpüb arxasınca su atmamışdı. Elcan öz tay-tuşlarına, dostlarına qoşularaq bizdən xəbərsiz, gecənin qaranlığında cəbhəyə getmişdi.



Bir dəfə Qaçay müəllimlə Şəhidlər xiyabanında görüşdük. Məni dəhşət götürdü. Əvvəldən də görmə problemi yaşayan Qaçay müəllimin gözlərinə baxmaq olmurdu. Ağlamaq onu nə günə salmışdı, İlahi! Təsəlli verməyə söz var idimi? Dedi, burda Elcan Şirinov adında üç şəhid var. İkisinin atasının adı Qaçaydır. Ona görə gəldim ki, mənim oğlumun baş daşına "Şirinov Elcan Qaçay Köçərli oğlu" yazsınlar.

...Həmin illəri xatırlayaraq neçə yazı hazırlamışamsa, bilmirəm. Amma həmkarım Qüdrət Piriyev deyir ki, radiodakı iş yoldaşların haqqında otuzdan çox yazı qələmə alsan da, hələ məlum deyil ki, oradakı ən yaxın həmsöhbətin kim olub.

Həmkarımın fikirləri arqument kimi maraqlı idi. Ancaq mən kiminlə daha yaxın həmsöhbət olduğumu deyə bilmirəm. Hamı ilə sözüm tutur, həmsöhbət olurdum. Bir dəfə Qaçay müəllimə demişdim ki, sizinlə daha çox ünsiyyətdə olmağımın bir səbəbi babamın adaşı olmağınızdırsa, digər səbəbləri də hər ikimizin vaxtilə neft mədənlərində çalışmağımız ( o Suraxanıda, mən isə Bayılda), hər ikimizin ali təhsil alandan sonra Bakıda peşə məktəbində işləməyimiz, (o, Binədə, mən isə Bayılda), hər ikimizin həmin məktəbdə direktor müavini işləməyimiz (o, tədris-istehsalat işləri üzrə, mən təlim-tərbiyə işləri üzrə), hər ikimizin ali təhsili institutun qiyabi şöbəsində almağımızdır. Dedi, ora başqa məqamları da əlavə elə. Hər ikimizin respublika mətbuatındakı ilk şeirlərimiz neftçi şair imzası ilə verilib və tale hər ikimizi Dövlət radiosunun eyni mərtəbəsində çalışmaq üçün hazırlayıb. (O, uşaq verilişləri redaksiyasında şöbə müdiri idi, mən isə Xəbərlər baş redaksiyasında).

Bir dəfə Qaçay müəllim dedi: – Dünən Oqtaydan eşitdim ki, (Oqtay Rzanı nəzərdə tuturdu) İttifaq da dördlüklər yazır. Onlardan bir–ikisini oxu, görüm.

Yadıma düşən ilk şeiri demək istədim və təbii ki, əvvəlcə şeirin adını xatırlatdım: "Oktyabr".

Şair sanki nədənsə iyrənmiş adam kimi geri çəkildi: – Yox, yox, lazım deyil. Oktyabrı mənə demə. Lazım deyil.

Yaxşı, dedim. Amma, məhz həmin şeiri oxudum:

***Girir yatağına saralan Günəş,***
***Yatmağa tələsən xəstə qız kimi.***
***Onun qızıl rəngli hörüklərini***
***Payız qayçılayıb, insafsız kimi.***

Gözləri güldü: – Bu, başqa məsələ. Yaxşıdır. Yoxsa deyirsən ki, Oktyabr, nə bilim nə...

Dedim, bu şeir inqilab, filan haqqında deyil, payızın orta ayı olan oktyabr haqqındadır. Bir daha gülümsündü: – Öpürəm.

Onun çox qəribə, bəlkə də heç kəsdə görmədiyim təbəssümü var idi.

Sonralar eşitdim ki, oğlu şəhid olandan sonra Köçərliyə (o, 1936-cı ildə Tərtər rayonunun Köçərli kəndində dünyaya gəlmişdi), anasını görməyə gedibmiş. Anasının gözləri görmürmüş. Qaçayın gəldiyini eşidən ana əllərini göyə qaldıraraq... fələkdən soruşub: "Balam gəldi. Bəs balası hanı?"

Deyəsən, bu xatirələr bir az kədərli oldu. Ona görə də sonda bir az nikbin əhval-ruhiyyəyə qayıtmaq istədim. Həmin məqsəddə də Qaçay müəllimin özünə istinad var. Belə ki, əməkdaşımız İlqar Həsənov Qaçay Köçərli haqqında xatirə yazdığımı eşidəndə dedi ki, onun çöx gözəl şeirləri var. Həmin şeirlərdən birində deyir:

***Göygöldə göy gözlü bir gözəl gördüm,***
***Az qaldı Göygölü gözümdən sala.***

Allah sənə rəhmət eləsin, dünyanın çox ağır yüklərini daşımış həmkarımız!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

**MƏDƏNİYYƏT XƏBƏRLƏRİ**

## Yubiley ilinin "Ədəbiyyat adamı" müsabiqəsinə yekun vurulub



**Azərbaycan Dillər Universitetində Azərbaycan Yaradıcılıq Fondunun dəstəyilə təşkil edilən "Ədəbiyyat adamı" müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib.**

Mərasimdə çıxış edən Xalq yazıçısı, akademik Kamal Abdulla müsabiqənin qaliblərinin tam obyektiv şəkildə seçildiyini deyib: "Bildiyimiz kimi, 2023-cü il, xüsusilə may ayı ulu undər Heydər Əliyevin 100 illik yubileyi ilə əlamətdardır. Biz də fondumuz adından qərara gəldik ki, bu özəl gün münasibətilə ədəbiyyatçılarımız, ziyalılarımız üçün bir mükafat təsis edək və onu hər ilin may ayında 5 nəfərə təqdim edək. Bəs niyə Ədəbiyyat adamı? Fikrimcə, bu ad iddiasız, mütəvazi addır. Bizim aləmimizdə Ədəbiyyat adamı sakitcə ədəbi fəaliyyətlə məşğul olan, zəhmətkeşliyi, peşəkarlığı əsas prinsip seçən, ədəbiyyatı həyat kimi, həyat tərzi kimi yaşayan, "ədəbi yaxşılıqlar edən", ədəbiyyatın dostu olan şəxsdir. Mükafatın qalibləri tamamilə subyektiv meyarlar əsasında seçilib. Bu mükafatın unikallığı ondadır ki, burda konkurentlər yoxdur".

Sonra qaliblər – Məmməd Oruc, Mahir Qarayev, İlham Rəhimli, Fəxri Uğurlu və Maral Yaqubova təltif olunublar. Onlar öz çıxışlarında mükafata layiq görüldükləri üçün Azərbaycan Yaradıcılıq Fonduna təşəkkür ediblər.

Qeyd edək ki, "Ədəbiyyat adamı" adlanan bu layihə çərçivəsində istər ölkə daxilində, istərsə də xaricdə çoxşaxəli, çoxspektrli tədbirlər, konfranslar, poeziya gecələri, görüşlər, kütləvi açıq mühazirələr, ödənişli qapalı seminarlar keçirilməsi, mükafatların verilməsi nəzərdə tutulub.

## Azərbaycanlı dirijorun Moskva konsertləri

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri və baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin rəhbərliyi ilə Y.Svetlanov adına Rusiya Dövlət Akademik Simfonik Orkestri silsilə konsertlər verib. Moskva Dövlət Filarmoniyasının əsas konsert salonu olan Çaykovski konsert salonunda "Bir şedevrin tarixçəsi" və "Gənc istedadlar" proqramına daxil olan konsertlər böyük maraqla qarşılanıb.**



"Bir şedevrin tarixçəsi" layihəsi çərçivəsində dahi Avstriya bəstəkarı Frans Şubertin "Yarımçıq" adı ilə tanınan 8-ci simfoniyası ilk dəfə olaraq tam variantda dinləyicilərə təqdim olunub. Gecədə bəstəkarın əlyazmaları əsasında məşhur musiqişünas Filip Leqq tərəfindən bərpa olunan əsər azərbaycanlı dirijor Əyyub Quliyevin ifasında bütöv şəkildə səslənib. Simfoniya ilə bərabər proqramda F. Şubertin "Rozamunda, Kipr şahzadəsi" pyesinə musiqi də özünəməxsus yer alıb.

## Bakıda "Rusiya Film Festivalı"

**Mayın 19-dan Bakıda "Rusiya Film Festivalı" brendi ilə kino günləri keçirilir. Paytaxtımızdakı Rus Evindən verilən məlumata görə, "Roskino" tərəfindən təşkil olunan üçgünlük festival "CinemaPlus Azerbaijan Cinema" kinoteatrında keçirilir.**




"Rusiya Film Festivalı" Azərbaycanda artıq üçüncü dəfədir ki, təşkil edilir. 2021-ci ildə festival onlayn, ötən il isə hibrid formatda – onlayn və oflayn keçirilib. Festival çərçivəsində beş film pulsuz nümayiş olunur. Tamaşaçılar fantastika janrında olan "Qırmızı papaq" adlı ailə filmini, "Dalğalar" kinodramını, "Libereya: xəzinə ovçuları" macəra hekayəsini, həmçinin Rusiya prokatında uğur qazanan "Qar kraliçası: donun əriməsi" və "Gəlin qaçıran. Kaşşey" cizgi filmlərini seyr etmək imkanı qazanıblar.

Festivalın son günündə nümayiş olunacaq "Dalğalar" filminin prodüseri Bakıda anadan olmuş Səbinə Yeremeyevadır. O, Avropa Kino Akademiyasının üzvüdür. Film həyatda yeni mənanın axtarışından bəhs edir.

## Gəncə teatrı Trabzonda

**May ayının 16-dan Gəncə Dövlət Dram Teatrı Türkiyənin Trabzon şəhərində keçirilən 23-cü Qara dəniz Beynəlxalq Teatr Festivalında iştirak edir.**



Festivala Türkiyənin Ankara, İstanbul, İzmir, Ərzurum şəhərlərindən, eləcə də İtaliya, Norveç, Bolqarıstan və Qazaxıstandan teatr kollektivləri qatılıb. Gəncəli teatr təmsilçiləri festivala Ejen İoneskonun "Kral ölür" (absurd keçid) tamaşasını aparıblar. Bu pyes həyat və ölüm arasında dünyanın maraq doğuran keçidlərinin təzahürü və insan taleyi haqqında baxış çərçivəsidir. Xatırladaq ki, yeni səhnə işinin quruluşçu rejissoru Tural Mustafayev, quruluşçu rəssamı Mustafa Mustafayev, xoreoqrafı Zeynəb Hüseynovadır. Rolları əməkdar artistlər Elxan Yunis, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova, aktrisa Günay Cabbarova və aktyor Ruslan Hüseynov ifa edirlər.

***"Xalq qəzeti"***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 106 (30222) 21 may 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Dünya Qadın Seriyasının oyunları Astarada



**Turnirin açılış oyunu Almaniya və Ukrayna milliləri arasında baş tutub. Bu görüşdə Ukrayna kollektivi 15-14 hesablı qələbə qazanıb. B qrupunda isə favorit Çin millisi, Avstriya komandasına 14-13 hesablı məğlub olub.**

C qrupunda ilk oyununu keçirən qadın millimiz Polşa seçməsi ilə oyundan 22-7 hesablı məğlubiyyətlə ayrılıb. D qrupunda qərarlaşan "Neftçi" klubu isə Rumıniya millisinə qarşı gərgin oyunun yekununda meydançadan 15-12 hesabı ilə qalib ayrılıb.

Turnir mayın 21-də başa çatacaq.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

## Cüdoçularımızdan Avropa kuboku yarışında 4 medal

**Cüdoçularımız Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində keçirilən Avropa kuboku yarışında 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıblar.**



Təmsilçilərimizdən Ruslan Paşayev (66 kq), İbrahim Əliyev (73 kq) çempion adına layiq görülüblər. Telman Vəliyev (73 kq) gümüş, Kamran Süleymanov (66 kq) bürünc medala sahib olublar.

*Sosial şəbəkələrdən seçmələr*

## Ümidlərimiz heç vaxt azalmasın!

**Sosial şəbəkələrdə ümid və nikbin hisslər təlqin edən fikirləri hər dəfə böyük məmnuniyyətlə oxuyuram. Dünən "Facebook"da qarşıma aşağıdakı paylaşım çıxdı. Orada yazılıb:**

*Ümidini itirmə ,*
*Sabahı bilən varmı*
*Yaradandan başqa?*
*Sən könlünü xoş tut,*
*Əlbət, bir qapı açılar,*
*Dua ilə ümidə...*

Paylaşım sosial şəbəkələrdə fəallığı ilə seçilən tanınmış jurnalist Şəmsiyyə Kərimovaya məxsusdur. Mən Şəmsiyyə xanımı şəxsən tanımıram, amma onun insanlara xoş ovqat, müsbət əhvali-ruhiyyə bəxş edən fikir və düşüncələrini böyük həvəslə oxuyuram. Hər dəfə də ürəyimdə "afərin" deyib aldığım pozitiv enerjiyə görə özümü müəllifə borclu sanıram.



**P.S.** Əziz oxucu, qoy ümidlərimiz heç vaxt azalmasın! Əksinə, artsın, bütün arzularımız çin olsun!

*Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"*

## İlk ekransız noutbuk

**İsrail şirkəti dünyanın ilk ekransız noutbukunu təqdim edib. Belə ki, "Spacetop" adlanan cihazın ekranını yalnız noutbukun sahibi görə bilir. Xəbəri "cnn.com" saytı verib.**



Təl-Əvivdə yerləşən "Sightful" şirkətinin hazırladığı Android əsaslı "Spacetop"un ekranı yoxdur və istifadəçi xüsusi hazırlanmış eynəkləri taxdıqda ekran görünür. Cihazın alt hissəsi klassik noutbuklardan fərqlənmir. O, sensor panel, klaviatura, barmaq izi skaneri və portlarla təchiz edilmiş plastik korpusa malikdir.

"Spacetop"un iş prinsipi sadədir. İstifadəçi noutbuku yandırır və eynəkləri taxır. Bundan sonra gözlərinin qarşısında 100 düymlük virtual ekran görünür. Eynəklər kabel vasitəsilə daimi olaraq noutbuka qoşulur.

"Spacetop"-un ən böyük üstünlüyü istifadəçinin nə etdiyini ondan başqa heç kimin görə bilməməsidir.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Naqilsiz qulaqlıq

**Apple şirkəti Beats Studio Buds+ naqilsiz qulaqlığı nəhayət ki, təqdim edib. Şirkət yeni naqilsiz qulaqlıqda səslənmə keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, onun şəffaf gövdəyə sahib versiyasını da satışa çıxarıb.**



Apple bildirib ki, Beats Studio Buds+ naqilsiz qulaqlığın daxili komponentlərinin 95 faizi yenilənib. Əsasən qulaqlıqların mikrofonlarının ölçüləri böyüyüb. Bununla yanaşı onların gövdələri IPX4 standartı üzrə sudan qorunurlar. Həmçinin qulaqlıqların dinamiklərinin ölçüləri də 3 dəfə böyüyüb.

Naqilsiz qulaqlıq sayəsində ətraf səs-küyün aktiv boğulması funksiyası və şəffaf rejim daha yaxşı çalışır. Beats Studio Buds+ Android (Google Fast Pair) və iOS cihazlara sürətli qoşulmanı, əlavə olaraq, Dolby Atmos dəstəkli həcmli səslənməni və sürətli şarj texnologiyasını dəstəkləyir.

*Texnologiya yenilikləri*

## Yeni kosmik uçuş layihəsi

**SpaceX şirkəti Starship kosmik gəmisinin ilk orbital uçuşunun reallaşdırılmasının ikinci cəhdinə aktiv şəkildə hazırlaşır. Şirkət özünün Starbase adlı kosmodromunun start meydançasına Starship-in 25-ci prototipini göndərib.**

Qeyd etmək lazımdır ki, Starship sistemi iki hissədən ibarətdir. Birinci hissəsini 33 ədəd mühərrikə sahib Super Heavy ağır raketi, ikinci hissəsini isə Starship kosmik gəmisi təşkil edir.

Xatırladaq ki, kosmik gəminin daha öncəki prototipinin keçən ay keçirilmiş uçuş testi o qədər də uğurlu olmadı.

*Z.BAYRAM, "Xalq qəzeti"*



## Süni intellekt məktub da yazır




**Bəzi işçilər süni intellektin onları əvəz edəcəyindən narahatdırlar. Lakin ekspertlər bildirir ki, yeni texnoloji qurğular işçilərin gündəlik həyatına müsbət təsir göstərərək onlara işlərini asanlaşdırmaqda kömək edə bilər.**

Bu süni zəka növlərindən biri də "ChatGPT" adlanır. Yeni texnologiya işçilərə məktub yazmaq, yeni sənəd yaratmaq və s. işlərdə kömək edir.

"ChatGPT"nin əsas qabiliyyətlərindən biri də odur ki, ona sorğu verildikdə daha əlçatan və asan oxuna bilən təbii dil əmalına əsaslanan mətn təqdim edir. O, sorğuya cavab verməklə yanaşı, işçilərin işlərini təhlil edir və onlara yeni məlumat əldə etməyə kömək edir.

Bu proqram, həmçinin bir çox istifadəçi üçün səsləndirmə lövhəsi funksiyasını da yerinə yetirir. Bu da yeni ideyalar yaratmaq üçün ən əlverişli vasitədir.

*F.HÜQUQQIZI, "Xalq qəzeti"*

## DNT-ni aşkar edən yeni üsul

**Florida Universitetinin bir qrup tədqiqatçısı canlılara məxsus xüsusiyyətləri və onların DNT məlumatlarını öyrənmək üçün yeni tədqiqat üsulları aşkar ediblər.**

Bu barədə "Nature Ecology & Evolution" elmi jurnalında məlumat dərc olunub. Qeyd olunur ki, adıçəkilən tədqiqat üsulu nəsli kəsilməkdə olan dəniz tısbağalarını öyrənir və onların DNT nümunələrini toplayır.

Tədqiqat zamanı, həmçinin insanların da genetik məlumatları götürülür, heyvanların DNT məlumatları ilə uyğunlaşdırılır. Bu məqsədlə də altı nəfərin işlədiyi 280 kvadratmetrlik (3,013 kvadrat fut) heyvan klinikasında insanlardan və heyvanlardan genetik xüsusiyyətlər götürülərək laboratoriyalara təhvil verilib.

Yeni tədqiqat üsulu gələcəkdə itkin düşən şəxslərin tapılması, cinayətlərin açılması üçün məhkəmə-tibbi araşdırmaların aparılması, mühüm arxeoloji ərazilərin müəyyən edilməsi və çirkab sularda aşkar edilən DNT izləri vasitəsilə ətraf mühiti xəstəliklərdən qorumaq üçün vacib əhəmiyyətə malik olacaq.



*Fidan SALMANOVA, "Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Meyvə həm də piylənmə yaradır

**İnsanların qidalanmasında meyvə çoxluğu orqanizmə mənfi təsir edə bilər. Həddindən artıq meyvə qəbul etmək, xüsusilə, yaşlı və ahıl insanlara ziyandır. Mütəxəssis – dietoloqlar bildirirlər ki, yaşlı insanlara gün ərzində iki meyvədən çox yemək tövsiyə olunmur. Bu qaydanın pozulması yaşlı insanlarda fruktozanın artmasına səbəb ola bilər ki, bu da qaraciyər piylənməsinə gətirib çıxarar. Bu, necə baş verir?**



Növündən asılı olmayaraq eyni, yaxud müxtəlif meyvəni həddindən çox qəbul etdiyimiz zaman orqanizmə çoxlu miqdarda fruktoza daxil olur. Qaraciyər həmin fruktozanı kompensasiya etməyə çalışır. Son nəticədə orqan funksiyasını normal yerinə yetirmir və alkoqolsuz hepatoz, yəni qaraciyər piylənməsi başlayır və inkişaf edir.

Bundan əlavə, mütəxəssislər onu da qeyd edirlər ki, çox miqdarda meyvə və fruktoza nəinki yalnız qaraciyər piylənməsinə, həmçinin artıq çəki və diabet, eləcə də, allergiyanın yaranmasına səbəb olur.

*Z.HÜSEYN, "Xalq qəzeti"*

*Proqnoz*




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, mayın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 12-17°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 22-27°, dağlarda gecə 4-8°, gündüz 8-13°, bəzi yerlərdə 15° isti olacaq.

*Q.QASIMOV, "Xalq qəzeti"*

## "Çörək nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

10 iyul 2023-cü il saat 11.00-da "Çörək nəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı, Nizami rayonu, Tofiq Abbasov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Çörək nəqliyyat" ASC-nin ləğvi və bununla əlaqədar bütün məsələlərin həll olunması barədə qərar qəbul edilməsi.

Qeyd – səhmdarlar yığıncağın gündəliyinin materialları ilə yığıncaqda tanış ola bilərlər.

*İdarə heyəti*

✓ **2018-ci ildə Azərbaycan Texniki Universiteti tərəfindən Nağızadə Xanım Nadir qızının adına verilmiş A144649 nömrəli ali təhsil haqqında bakalavr diplomu və qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1234
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00